www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 13 yanvar 2016-cı il Çərşənbə № 8 (6329) Qiymətı 50 qəpik

**Xəbər**

## Arağın və siqaretin kartla satışı qərarı ləğv olundu

yazısı səh.9-da

**Gündəm**

### Jurnalisti döyüb öldürənlərin məhkəməsində qalmaqal



Təqsirləndirilən şəxslərdən özlərini təqsirli bilənlər də oldu, bilməyənlər də; jurnalistlər həkimlərin məsuliyyətə cəlb olunması tələbi ilə aksiya keçirdilər

yazısı səh.3-də

### Beyləqanda və Bərdədə dəhşət: iki məktəbli qız özünü asdı

yazısı səh.13-də

### İrandan Azərbaycana ət gətirilməsi qadağan edildi

yazısı səh.15-də

### Nazirin manatın "batması" açıqlaması narazılıqla qarşılandı

yazısı səh.10-da

### Həbsdəki Nardaran ağsaqqalı özünü qismən təqsirli bilir

yazısı səh.13-də

### Donuz qripi əhali arasında təlaş yaradıb

yazısı səh.15-də

### Müxalifət ölkəni böhrandan çıxarmaq üçün nə düşünür?

yazısı səh.12-də

### Dollar kreditlərinə çarə tapılmır

yazısı səh.5-də

### İstanbuldakı partlayışda 10 nəfər ölüb

yazısı səh.2-də

### Rayonlarda etiraz dalğası başlayır?

yazısı səh.9-da

### Neft antirekorda doğru-20 dollar ola bilər

yazısı səh.8-də

## Sabiq rabitə və informasiya texnologiyaları naziri qandallanır

# ƏLİ ABBASOVA HƏBSXANA YOLU GÖRÜNDÜ - "DÖVLƏTƏ XƏYANƏT"

Prezident İlham Əliyev rabitə nazirini işdən qovduqdan sonra ilk dəfədir ki, RYTN-də baş verənlər haqda danışıb və çox sərt ifadələr işlədib: "Cinayətdir, vicdansızlıqdır, dövlətə xəyanətdir"; Ə.Abbasovun YAP Siyasi Şurasından uzaqlaşdırılması da gündəmə gəlib, müəllim kimi auditoriyaya girməsinə isə universitet rəhbərliyi qadağa qoyub




yazısı səh.10-da

## Sumqayıtda körpələri 10 min manata satırlar - şok faktlar

Tibb bacısı Sumqayıtdakı 1 saylı Doğum Evində körpələrin hansı qaydada satıldığının sxemini açıqladı; işçilərin qul kimi işlədilməsinin təfərrüatlarını danışdı yazısı səh.4-də



Fəzail Ağamalı

### Deputatdan iki YAP-çı həmkarlarına ağır ittiham

yazısı səh.9-da



*Professor İlham Rəhimov:*

### "Tələbəlik illərində Putinlə rəqib kimi güləşməmişik"

yazısı səh.6-da



### Mehman Əliyevdən aprelədək islahatlar olacağı anonsu

yazısı səh.8-də



# İlham Əliyev Ərdoğana başsağlığı verib

**Prezident İlham Əliyev türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğana İstanbulda törədilmiş partlayış nəticəsində insanların həlak olması ilə əlaqədar başsağlığı verib. APA-nın məlumatına görə, dövlət başçısının məktubunda deyilir:**

"Hörmətli cənab prezident, əziz qardaşım, İstanbulun Sultanəhməd meydanında törədilmiş partlayış nəticəsində insanların həlak olması və yaralanması xəbərindən olduqca sarsıldıq. Biz bu amansız terror aktından son dərəcə hiddətlənir, terrorizmin bütün təzahürlərinə qarşı ən kəskin şəkildə və hamılıqla mübarizə aparılmasını zəruri hesab edirik.

Baş vermiş bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm. Allah rəhmət eləsin!"

# Bakıda zavodda kütləvi zəhərlənmə: fəhlələr xəstəxanaya yerləşdirildi

**Bakıda yerləşən zavodların birində kütləvi zəhərlənmə baş verib. "Qafqazinfo"nun verdiyi xəbərə görə, hadisə Nərimanov rayonu, Ziya Bünyadov prospektində yerləşən Metal Konstruksiyalar Zavodunda bir neçə gün öncə baş verib. Bakı şəhər sakini, 1966-cı il təvəllüdlü Elçin Rəhimovun icarə əsasında işlətdiyi metal qəbulu sexində naməlum səbəbdən ammonyak turşusu yerə dağılıb.**

Nəticədə yaxınlıqdakı taxta sexində işləyən fəhlələr - Göyçay rayon sakini, 1994-cü il təvəllüdlü Yaşar Xancalov, Salyan rayon sakini, 1983-cü il təvəllüdlü Yusif Kərimov, Ağsu rayon sakini, 1985-ci təvəllüdlü Xəqani Nurəliyev, Ucar rayon sakini, 1988-ci il təvəllüdlü Rzaağa Heydərov, Bakı şəhər sakinləri -1971-ci il təvəllüdlü Pərviz Əbdülhəmidov və qardaşı, 1974-cü il təvəllüdlü Rövşən zəhərlənərək xəstəxanaya yerləşdiriliblər.

Toksikologiya xəstəxanasında müalicə olunan fəhlələrin səhhəti qənaətbəxşdir.

# Bu gün hava necə olacaq?

**Yanvarın 13-də Bakıda və Abşeron yarımadasında hava şəraiti dəyişkən buludlu, əsasən yağmursuz olacaq. Virtualaz.org Ekologiya və Təbii Sərvətlər Nazirliyinə istinadən bildirir ki, səhər bəzi yerlərdə zəif duman olacaq. Mülayim cənub-qərb küləyi səhər və gündüz arabir güclənəcək. Havanın temperaturu gecə 3-5 dərəcə, gündüz 8-13 dərəcə isti olacaq. Bakıda gecə 3-5 dərəcə, gündüz 9-11 dərəcə isti olacağı gözlənilir.**

Yanvarın 13-də Abşeron yarımadasında atmosfer təzyiqinin xeyli enməsi fonunda gündüz gilavar küləyinin güclənməsi meteohəssas insanlarda narahatlıq hissi yarada bilər. Sonrakı iki gündə mülayim xəzri küləyinin üstünlüyü meteohəssas insanlar üçün əsasən əlverişlidir.

Azərbaycanın rayonlarında əsasən yağmursuz hava şəraiti proqnozlaşdırılır. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 0-5 dərəcə isti, gündüz 10-15 dərəcə isti, dağlarda gecə 3 dərəcə şaxtadan 2 dərəcəyədək isti, yüksək dağlıq ərazilərdə 4-9 dərəcə şaxta, gündüz 5-10 dərəcə isti olacağı gözlənilir.


"Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Mesavat" - 0.50 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:


# İstanbulun Sultanəhməd meydanında baş verən partlayışda 10 nəfər ölüb

## Suriyalı kamikadzenin törətdiyi partlayışda ölənlərin əksəriyyəti əcnəbi turistdir

**Yanvarın 12-də yerli vaxtla saat 10.20-də İstanbuldakı Sultanəhməd meydanında terror aktı törədilib. Sultanəhməd meydanında baş verən partlayış nəticəsində 10 nəfər ölüb, 15 nəfər xəsarət alıb. APA-nın NTV-yə istinadən verdiyi məlumata görə, bu barədə İstanbul Valiliyinin yaydığı açıqlamada bildirilir.**

Türkiyənin İstanbul şəhərində törədilən partlayışda ölənlərin əksəriyyəti əcnəbi turistdir. APA-nın xəbərinə görə, bunu Türkiyə baş nazirinin müavini, hökumət sözçüsü Numan Kurtulmuş deyib. Onun sözlərinə görə, xəsarət alanların 9-u Almaniya, 1-i Norveç, 1-i isə Peru vətəndaşıdır. Xəsarət alanların 2 nəfərinin vəziyyəti ağırdır: "Partlayışın hədəfində əcnəbilərdən ibarət turist qrupu olub".



Rəcəb Tayyib Ərdoğan İstanbul şəhərindəki Sultanəhməd meydanında partlayışı törədənin kimliyini açıqlayıb. APA-nın NTV-yə istinadən xəbərinə görə, Türkiyənin müxtəlif ölkələrdəki səfirləri ilə keçirdiyi görüşdə çıxış edən Ərdoğan deyib ki, partlayışı suriyalı kamikadze törədib. O, hadisə nəticəsində 10 nəfərin öldüyünü, 15 nəfərinsə xəsarət aldığını bildirib: "Bizim üçün İŞİD, PKK və digər terror təşkilatlarının fərqi yoxdur. Bölgədə fəaliyyət göstərən bütün terror təşkilatlarının hədəfi Türkiyədir".

# "Yaxın günlərdə güclü zəlzələ gözlənilmir"

**"Yaxın günlərdə ölkə ərazisində güclü, fəlakətli zəlzələnin olması gözlənilmir". Bunu APA-ya açıqlamasında Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin direktoru Qurban Yetirmişli deyib.**

O qeyd edib ki, gələn həftə seysmik risk xəritələrinin hazırlanması ilə əlaqədar yaponiyalı nümayəndələrlə görüşün keçirilməsi nəzərdə tutulub: "Bildiyiniz kimi, seysmik xəritələrin, təhlükəli zonaların müəyyən edilməsi ilə bağlı layihə hazırlanıb. Artıq gələn həftə yaponiyalı nümayəndələrlə görüş olacaq və həmin görüşdə bu məsələyə baxılacaq".

Q. Yetirmişli qeyd edib ki, layihənin Yaponiya hökumətinin vəsaiti hesabına həyata keçirilməsi nəzərdə tutulub: "Layihənin müddəti iki ildir. Cihazlar alınmalıdır. Şəhərdə bütün binaların pasportlaşdırılması, tikilməsi və s. nəzərdə tutulub. Bir sözlə, layihə əsasında böyük işlər aparılacaq".

Qeyd edək ki, dünən İran-Azərbaycan sərhədində, İran ərazisində zəlzələ baş verib. Zəlzələ Azərbaycan ərazisində Lənkəran, Lerik, Cəlilabad və Yardımlı rayonlarında hiss olunub.

# Daha bir ağır cinayət

**Yevlaxda qətl hadisəsi baş verib. APA-nın yerli bürosunun xəbərinə görə, hadisə Yevlax şəhərindəki 2 saylı musiqi məktəbinin qarşısında qeydə alınıb.**

Məktəbdə müəllimə işləyən 35 yaşlı Süleymanova Ahu Nadir qızı məktəbin binası qarşısında qardaşı Hüseynov Veysəl Nadir oğlu tərəfindən bıçaqlanıb. A. Süleymanova hadisə yerində dünyasını dəyişib.

Qadının 2 övladının olduğu bildirilir. Qətlin səbəbi məlum deyil.

Faktla bağlı hüquq-mühafizə orqanları tərəfindən araşdırma aparılır.




# Siyəzənin icra başçısının müavini etiraz aksiyasından danışdı

**Yanvarın 12-də Siyəzən rayonunda bir qrup sakinin icra hakimiyyətinin qarşısına toplaşmasına qurumdan münasibət bildirilib. Siyəzən Rayon İcra Hakimiyyəti (RİH) başçısının müavini Zəfər Əliyev APA-ya açıqlamasında bildirib ki, icra hakimiyyətinin qarşısına gələn vətəndaşlar əsasən unun və digər ərzaq məhsullarının süni qiymət artımına etiraz ediblər: "Onlar həmçinin quşçuluq təsərrüfatında öz hesabına məzuniyyətə buraxılanların işlə təmin olunmasını istəyiblər".**

Z. Əliyevin bildirdiyinə görə, Siyəzən RİH-in başçısı Asif Hüseynov vətəndaşları qəbul edib: "Görüşdə rayon sakinləri 54 saylı Şabran-Siyəzən seçki dairəsindən deputat seçilən Tahir Süleymanovla görüşün keçirilməsini istəyiblər. Sabah saat 09:00-da rayonun Mədəniyyət sarayında görüş keçirilməsi planlaşdırılıb".

# Məktəblərdə ixtisar gözlənilirmi?

**Azərbaycan Təhsil Nazirliyi büdcəyə qənaət etmək məqsədilə orta məktəblərdə bəzi ştatların ləğv oluna bilməsi ehtimalına aydınlıq gətirib.**

Nazirliyin İnsan resursları şöbəsinin müdiri İlham Nağıyev "Trend"ə bildirib ki, məktəblərdə ştatların ləğv edilməsi və işçilərin ixtisar edilməsi nəzərdə tutulmur: "Belə bir plan hələ ki yoxdur. Məktəblərdə ştatların, yaxud müəllimlərin ixtisarı olmayacaq".


**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**


# FHN-in təyyarəsi neftçinin meyitini gətirmək üçün Türkmənistana yola düşüb

**FHN-in təyyarəsi Xəzər dənizinin Türkmənistan sektorunda tapılmış neftçinin meyitini gətirmək üçün yola düşüb. Bu barədə APA-ya FHN-dən məlumat verilib. Məlumat daxil olduqdan sonra FHN-in "BE-200ÇS" amfibiya tipli təyyarəsi istintaq qrupu ilə birgə cəsədin gətirilməsi üçün Türkmənistana yola salınıb.**

Qeyd edək ki, Xəzər dənizinin Türkmənistan sektorunda "Günəşli" yatağındakı 10 saylı dərin dəniz özülündə mexanik işləyən və baş vermiş qəza nəticəsində itkin düşən neftçi, 1958-ci il təvəllüdlü Qasımov Mübariz Dilqəm oğlunun meyiti aşkar edilib.

# Sumqayıtda avtobus qəzası: ölən və yaralananlar var

**Sumqayıtda ağır yol qəzası baş verib. Virtualaz.org Daxili İşlər Nazirliyinə istinadən bildirir ki, yanvarın 11-də saat 17 radələrində Sumqayıt şəhərinin H.Z.Tağıyev qəsəbəsində şəhər sakinləri Amid Cəfərovun idarə etdiyi "Mercedes" və Canlar Hüseynovun 3 saylı xətt üzrə idarə etdiyi "İsuzu" markalı (avtobus) avtomobillər toqquşub.**

Nəticədə A.Cəfərov hadisə yerində ölüb, C.Hüseynovun 2 sərnişinə isə xəstəxanada ilkin tibbi yardım göstərildikdən sonra buraxılıb. Sumqayıt ŞPİ tərəfindən araşdırma aparılır.

# Dağlıq Qarabağ ermənilərı arasında "donuz qripi" yayılıb

**Ermənistanın işğalı altında olan Azərbaycan ərazilərində "donuz qripi" yayılıb. Erməni KİV-lərinin yaydığı məlumata görə, mövsümi qriplə əlaqədar xəstəxanalardakı xəstələrdən nümunələr götürülərkən H1N1 virusuna ("donuz qripi") yoluxma halları qeydə alınıb.**

Dağlıq Qarabağdakı separatçı rejimin "səhiyyə naziri" Karina Balayan bildirib ki, iki gün əvvəl təhlükəli virus üç uşaqda aşkar edilib. Bundan sonra xəstələr "Arevik" tibb mərkəzinə köçürülüb və bütün yaşayış məntəqələrində təhlükəli virusla əlaqədar tədbirlərə start verilib.

Qeyd edək ki, Ermənistanda 170 nəfərin "donuz qripi" adlandırılan H1N1 virusuna yoluxduğu təsdiqlənib. Onlarda 4-nün vəziyyəti ağırdır və reanimasiya şöbəsinə yerləşdiriliblər. Ermənistanın səhiyyə nazirinin müavini Vaan Poqosyan bildirib ki, 2015-ci ilin sonu və 2016-cı ilin əvvəlində H1N1 virusu ilə bağlı 6 ölüm faktı qeydə alınıb. Hazırda ölkədə bütün növ qrip və pnevmoniyadan 855 nəfər müalicə alır. Onlardan 101 nəfəri hamilə qadınlar, 672 nəfəri isə uşaqlardır.



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**



# Jurnalisti döyüb öldürənlərin məhkəməsində qalmaqal

## Təqsirləndirilən şəxslərdən özlərini təqsirli bilənlər də oldu, bilməyənlər də...Jurnalistlər həkimlərin məsuliyyətə cəlb olunması tələbi ilə aksiya keçirdilər

**Yanvarın 12-də Bakı Ağır Cinayətlər Məhkəməsində jurnalist Rasim Əliyevi öldürənlərin növbəti məhkəmə iclası oldu. Əvvəlki proses kimi, bu dəfə də məhkəmə qalmaqallı keçdi. Buna səbəb məhkəmə binası önünə gələn çoxsaylı insanların prosesə buraxılmaması oldu. Media nümayəndələrinə bu dəfə də məhkəməni izləməyə imkan verilmədi. İlqar adlı məhkəmə nəzarətçisi açıq şəkildə jurnalistləri məhkəməyə buraxmadı. Təqsirləndirilən şəxslərdən bəzilərinin yaxınları da zala daxil ola bilmədilər. Bu da uzun müddət onlarla məhkəmə nəzarətçiləri arasında qarşıdurmanın yaranmasına səbəb oldu. Amma etirazlar nəticə vermədi.**





## Camal Məmmədov: "Ağlıma gəlməzdi ki, bir-iki təpiklə adam ölə bilər"

Prosesə buraxılmayan mətbuat nümayəndələri məhkəmənin önündə aksiya keçirdilər. Aksiyada "Həkimlər məsuliyyətə cəlb olunsun!", "Həkimlər cəzalandırılsın!" və "Jurnalist ölümlərinə son!" şüarları səsləndirildi. Polislərin müdaxiləsindən sonra şüar yazılmış plakatlar yığışdırıldı.

Hakim Eldar İsmayılovun sədrliyi ilə məhkəmə 10:30-da prokurorun ittiham aktını elan etməsi ilə başladı. Sonra təqsirləndirilən şəxslərdən özlərini təqsirli bilib-bilməmələri soruşuldu. Elşən İsmayılov, Camal Məmmədov və Arif Əliyev özlərini qismən təqsirli bildilər. Kənan Mədətov və Samir Mustafayev isə özlərini təqsirli bilmədilər.

**Daha sonra Elşən İsmayılov ifadə verdi:** "Günorta saatlarında məşqdən evə gəlib uzanmışdım. Facebook-dostlarımdan kimsə Rasimin statusuna rəy yazmışdı. Ona görə də yazı səhifəmdə çıxmışdı. Rasim dostluğumda olmayıb. Statusda o, Cavidi əxlaqsız, tərbiyəsiz adlandırmışdı. Statusu ilə bağlı Rasimə yazdım. Dedim ki, Azərbaycanı sevən şəxs Cavidin xidmətlərinə görə onun haqqında belə yazmaz. O, mənə dedi ki, azərbaycanlı olduğuma şübhən varsa, gedib spermamı yoxlada bilərsən. Həmin mesaj hazırda facebookumda durur. Biz onunla söyüşdük. Mənə yazdı ki, kişisənsə gəl görüşək. Nömrəsini də yazmışdı. Kontur alıb dərhal zəng etdim. O, mənə telefonda "ana-bacı", "var-yox" söyüşləri söydü. Məni "Bayıl" marketin yanına görüşə çağırdı. Onun söyüşünü qəbul edə bilmirdim. Məni söyməyi, üstəlik, görüşə çağırmağı məndə şübhələr oyatdı. Cavidə yazdım ki, jurnalist sənin barəndə belə yazıb. O, Rasimlə danışdı. Cavid mənə dedi ki, onunla işin olmasın. Dedim ki, o, ana-bacı söyüşü söyüb. Cavid Rasimin məndən üzr istəyəcəyini dedi. Əgər deyildiyi kimi, mən Cavidi ağsaqqal kimi qəbul eləsəydim, onun sözünə qulaq asıb getməzdim. Cavid hadisədən sonra baş verənləri internetdən öyrənib, məni tənbeh elədi. Onunla görüşə gedəndə onu vuracağımı bilmirdim. Rasimin döyülməsində mən, Camal və Arif iştirak edib".

**Təqsirləndirilən şəxsin ifadəsinin bu yerində R.Əliyevin anası Teyfurə Əliyevanın ona sualı oldu:** "Deyirsən, Rasim söyüş söyüb, bəs bundan əvvəl bir adamı niyə bıçaqlamısan?"

Hakim Eldar İsmayılov sualın işə aidiyyəti olmadığını bildirərək onu çıxartdı.

**Ardınca Camal Məmmədovun ifadəsi dinlənildi. O, E.İsmayılovla birlikdə müxtəlif klublarda oynadığını bildirdi:** "Hadisə baş verən gün yemək almaq üçün həyətə düşəndə təsadüfən Elşəni gördüm. Onun dediklərindən sonra hadisədən xəbər tutdum. Rasimi tanımırdıq. Hətta Bayılda bir çayxanada üç nəfərdən birini Rasim zənn etdik. Yaxınlaşdıq, məlum oldu ki, o deyil".

**Təqsirləndirilən şəxs ifadəsini müstəntiqin yazdığını və orada bir sıra məqamlarla razılaşmadığını, əməlindən peşman olduğunu bildirdi:** "Ağlıma gəlməzdi ki, bir-iki təpiklə adam ölə bilər. Peşmanam".

Məhkəmə prosesi yanvarın 14-də, saat 10:30-da digər təqsirləndirilənlərin ifadəsi ilə davam edəcək.

**Prosesdən sonra zərərçəkmiş tərəfin vəkili Əsabəli Mustafayev açıqlama verdi:** "Gələn dəfə zərərçəkmiş tərəf olaraq, biz ifadə verəcəyik. İki şəxsin dindirməsi göstərdi ki, məhkəmədə verdikləri ifadələrlə istintaq zamanı verdikləri ifadələr arasında öz xeyirlərinə ciddi dəyişikliklər var. Burada müdafiəçilərin rolu çox idi. Hiss olundu ki, müdafiəçilər istiqamətlənmiş suallar verməklə onların vəziyyətini yüngülləşdirmək istəyirlər. Amma faktlar qalır. Biz obyektiv məhkəmə prosesinin getməsində maraqlıyıq. Bunun üçün də müxtəlif suallarımız oldu. Zərərçəkmiş tərəf olaraq, biz ilk günlərdən mətbuat vasitəsilə bildirmişik ki, nəyinsə xətrinə kütləvi həbslərin aparılmasının, eləcə də kimlərəsə ağır cəzaların verilməsinin tərəfdarı deyilik. Sadəcə, ədalət tərəfdarıyıq. Bundan ötrü də əlimizdən gələni edəcəyik. İstintaqın ilk günlərindən narazılığımızı bildirmişik. Düşünürdük ki, məhkəmə istintaqı zamanı problemləri aradan qaldıra bilərik. Bunun üçün vəsatətlərimiz oldu. Amma təəssüf ki, qəbul olunmadı. Təqsirləndirilən şəxslərdən ikisi özünü təqsirli bilmir, digərləri isə qismən özlərini təqsirli sayırlar. Onların dindirilməsi zamanı məlum oldu ki, hara getdiklərini biliblər. Onu da qeyd edim ki, zərərçəkmiş tərəf olaraq, məhkəmə istintaqının başlanmasının əleyhinə idik. İşin yenidən istintaqa qaytarılmasını istəyirdik. İttiham aktını prokuror oxuyanda qeyd edir ki, göstərilən tibbi yardıma baxmayaraq vəfat etmişdir. Amma Rasimə, ümumiyyətlə, tibbi yardım edilməyib. Çox təəssüf ki, buna istintaq qiymət vermədi, görünür, məhkəmə də qiymət verməyəcək".

**Vəkil jurnalistlərin prosesə buraxılmamasına da münasibət bildirdi:** "Çox təəssüf ki, bundan xəbərim olmadı. Yəqin ki, gələn dəfə prosesin daha böyük zalda keçirilməsi vəsatətini verəcəyik. Çünki zalın dolmasını bəhanə gətirirlər. Jurnalistlərin məhkəmədə iştirak etmələri həm mənəvi borclarıdır, həm də həmkarlarının məhkəməsidir".

**Mərhum jurnalistin atası Məmmədəli Əliyev proses barədə bunları dedi:** "İki nəfər ifadə verdi. Növbəti prosesdə digərləri dindiriləcək. İfadələrdən məlum olur ki, Cavid Hüseynovu məsuliyyətdən kənarda qoymaq istəyirlər. Elşən İsmayılov deyir ki, Rasim onunla görüşən zaman üzr istəməli idi. Guya oğlum telefonda onun anasına söyüb. Necə ola bilər ki, telefonda tanımadığın adamı ilk dəfədən təhqir edəsən. Övladım olduğu üçün demirəm. Rasim, ümumiyyətlə, söyüş işlədən deyildi. Elşən İsmayılovun ifadəsində diqqətçəkən bir yer də var idi. Guya Rasim onlarla görüşəndə üzr istəməsini tələb edib. Rasim isə "əcəb etmişəm" cavabını verib. Halbuki döyülmə anında heç bir söhbət olmayıb. Salamlaşan kimi Rasimə zərbə dəyib. Onların dediklərinin hamısı yalandır. Onların əsas məqsədləri Cavid Hüseynovu qorumaqdır. Cavidin məhkəməsindən hələ də xəbərimiz yoxdur".

❑ **Cavanşir ABBASLI**



## Ramil Usubov Çevik Polis Alayında əməliyyat müşavirəsi keçirdi

**Yanvarın 12-də Daxili İşlər Nazirliyinin DİN Çevik Polis Alayında 2015-ci ilin yekunlarına həsr edilmiş əməliyyat müşavirəsi keçirilib. "Report" xəbər verir ki, tədbirdə daxili işlər naziri, general-polkovnik Ramil Usubov iştirak edib.**

Tədbirdə məruzələr dinlənilib, 2015-ci il ərzində görülən işlər və 2016-cı ildə qarşıya qoyulan məsələlər müzakirə edilib.

## Bank müdirini qətlə yetirənlərə hökm oxundu



**Yanvarın 12-də Bakı Ağır Cinayətlər Məhkəməsində "Avropa" hotelinin idman zalında öldürülən "Zaminbank"ın Nəsimi filialının müdiri Azər Məmmədovun qətlə yetirilməsində təqsirləndirilən Mövlud Səfərov və Sənan Quliyevin cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.**

Virtualaz.org saytının əldə etdiyi xəbərə görə, prosesə hakim Səbuhi Hüseynov sədrlik edib. Prosesdə hökm oxunub. Hökmə görə, Sənan Quliyev ömürlük, Mövlüd Səfərov isə 20 il müddətə azadlıqdan məhrum edilib. Qeyd edək ki, qətl hadisəsi 22 aprel 2015-ci ildə "Avropa" hotelinin idman zalının soyunub-geyinmə otağının qarşısında baş verib. Tərəflərin ilkin izahatlarından məlum olub ki, təqsirləndirilən Sənan Quliyevlə Mövlud Səfərov hotelin idman zalında məşq etmək üçün rüsum ödəyiblər. Onların tatamiyə idman ayaqqabısı ilə çıxması orada işləyən qarışıq döyüş növləri üzrə məşqçi Ruslan Əfəndiyevin etirazına səbəb olub. Bu zaman tərəflər arasında mübahisə yaranıb. Məşqçinin tələbələri, o cümlədən "Zaminbank"ın Nəsimi filialının sədri Azər Məmmədov da mübahisəyə müdaxilə edib və əlbəyaxa dava başlayıb. Bu zaman Sənan Quliyev üzərində gəzdirdiyi bıçaqla Ruslan və Azərə xəsarət yetirib. Xəsarət döş qəfəsinə nüfuz etdiyindən, Azər Məmmədov hadisə yerində ölüb, Ruslan Əfəndiyev isə yaralanıb.

YENİ MÜSAVAT
N 8 (6329) 13 yanvar 2016



# Qəzetlər yerli məhsuldursa

Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

## Yaxud "Ac qılınca çaparsa..."

**Azərbaycanda qiymət etirazları başlayıb. Hələlik özünü bölgələrdə göstərən, lokal xarakter daşıyan və kütləviliyi olmayan aksiyaların getdikcə böyüyüb mütəşəkkil şəkil almayacağına kimsə zəmanət verə bilməz. Heç Bzejinskinin özü də bunu proqnoz edə bilməz.**

Çox şey sözsüz ki, spontan etirazlara yerli və mərkəzi hakimiyyət orqanlarının nə dərəcədə çevik və ölçülü-biçili reaksiya verəcəyindən asılı olacaq. Əgər ənənəvi olaraq səbəblər qoyulub nəticələrlə mübarizə aparılacaqsa, əsas tələblər kamifuljay və ya qulaqardı edilib olaylarda yenə mifik "təxribatçı, ekstremist ünsürlərin" izi axtarılacaqsa, situasiya təbii ki, qəlizləşməkdə davam edəcək.

Hələlik bunun əksini söyləmək çətindir. Belə görünür, hökumət qurumları bu qəbildən hadisələrə köhnə formada, ənənəvi üsullarla reaksiya vermək fikrindədir. Vəziyyətin ən qorxulu özəlliyi isə odur ki, insanları küçəyə artıq dolanışıq problemləri çıxarır, tutaq ki, hansısa siyasi şüarlar, müxalifət, Qarabağ məsələsi yox.

Müxalifət ümumiyyətlə, bu proseslərdə yoxdur, gözə dəymir. Bunun Azərbaycanın maraqları baxımından əslində ziyanı var. Çünki "Ac qılınca çapar" deyib atalar. Hər necə olmasa, müxalifət ictimai-siyasi proseslərin ekssessiz, konstitusion məcrada getməsini təmin edən, kütlə dağıdıcılığını önləyən və xalqla hökumət arasında bufer rolu oynayan mühüm faktorlardandır.

Əfsus ki, hakimiyyətin apardığı siyasət nəticəsində ölkədə demokratik müxalifətin fəaliyyət imkanları minimuma enib. Nəticə etibarilə iqtidar faktiki surətdə bilavasitə narazı və qəzəbli xalqla üz-üzə qalmış durumdadır. Bu xalq isə qəzəbini hələlik içində boğur - öz-özünə, evində, yolda gedə-gedə danışır, deyinir. Ancaq özünüqoruma instinkti nə vaxtsa onu özündən çıxara da bilər.

Bütün variantlarda vəziyyət hökumətdən ekstraordinar və təcili qərarlar tələb edir. Həm də o səbəbə ki, iqtisadçı ekspertlərə görə, neftin qiymətində daha ciddi enmələr ola bilər - qiymət hətta 10 dollara kimi düşə bilər. Bu isə büdcəsi də, manatı da neft asılılığında qalmaqda davam edən bir dövlət üçün qat-qat ağır sonunclara gətirə bilər.

Hər halda, təhlükəni gözləməkdənsə, ona qarşı getmək daha ağıllı gediş sayılır. Hökumətin strategiyası da bunun üzərində qurulmalıdır. Yoxsa ki, "süni qiymət artıranlarla" mübarizə ilə vəziyyətdən çıxmaq mümkün olmayacaq. Zira, iqtisadiyyatın, biznesin, ticarətin, azad bazarın öz qanunları var və onlar hər yerdə, o cümlədən Azərbaycanda da dəyişməzdir.

Hələ onu demirik ki, "süni qiymət artımı" anlayışının özü əksər hallarda şişirdilir. Məsələn, tez-tez eşidirik ki, xaricdən gətirilməyən, Azərbaycanda istehsal olunan məhsulların qiyməti qalxmamalıdır. Absurddur. Niyə?

Ona görə ki, ölkədə tutaq ki, pomidor-xiyar yetişdirən, heyvan-toyuq-cücə saxlayan yalnız pomidor-xiyarla, toyuqla qidalanmır. Onun ayrı qayğıları da var axı; şəkər tozuna, kərə və bitki yağlarına, kartof-soğana, çörəyə və yaxud pal-paltara, zəruri məişət avadanlıqlarına ehtiyacı var - hansıların ki, qiyməti idxalla əlaqədar dərhal qalxıb, o cümlədən ərzaq unu bütünlüklə xaricdən (Rusiya, Belarus, Qazaxıstan) gətirildiyi üçün çörək də avtomatik bahalaşıb. İndi bu bahalıqla ayaqlaşmaq üçün olan-qalan yerli fermer, ticarətçi bədbəxt nə etməlidir? Cavab öz-özlüyündə aydındır.

Və ya intellektual sahəni götürək: "Yeni Müsavat" qəzeti də ölkədə çıxan məhsullardandır, çap məhsuludur. Ancaq artıq nəşriyyat çap xərclərini 25% qaldırıb. Qəzet kağızının qiyməti devalvasiyadan əvvəlki qiymətlə müqayisədə 400 manat bahadı. Hətta bu artım olmasaydı belə, qəzetin satış qiymətini artırmaq qaçılmaz olacaqdı. Niyəsinə bir abzas yuxarıda toxunuldu.

O ayrı məsələ ki, bahalaşma da əsaslandırılmış, ədalətli olmalıdır. Bunu isə artıq nə fermer, iş adamı, qəzet redaksiyası müəyyən edir, nə də hökumət. Yalnız azad bazar, azad iqtisadi rəqabət mühiti müəyyənləşdirir.

Azərbaycanın ən böyük dərdi də elə budur - belə bir bazarın, mühitin yoxluğu.

# Sumqayıtda körpələri 10 min manata satırlar - şok faktlar

## Tibb bacısı Sumqayıtdakı 1 saylı Doğum Evində körpələrin hansı qaydada satıldığının sxemini açıqladı; işçilərin qul kimi işlədilməsinin təfərrüatlarını danışdı

**"Bunlar adam tapır və uşaqları 10 min manata satırlar. Mən şikayət edirəm, şikayətlərimə baxan yoxdur". Bu sözləri "Yeni Müsavat"a müraciət edən Sumqayıt şəhər 1 saylı Doğum Evində tibb bacısı işləyən Samirə Babayeva deyib. Onun sözlərinə görə, Doğum Evinin baş həkimi Sevda İsgəndərli şikayətlərə heç bir əhəmiyyət vermir: "1996-cı ildən orada uşaq şöbəsində tibb bacısı işləyirəm. Sevda İsgəndərli Doğum Evinə 1997-ci ildə baş həkim təyin olunub. Orada satılan uşaqların sayı-hesabı yoxdur".**



### "Satılan uşaqların əksəriyyətini də alan ləzgi ailələrdir"

**Şikayətçi körpələrin hansı sxem üzrə satıldığını belə təsvir edib:** "Ana körpəsindən imtina edirsə, ona imtina ərizəsini kadrlar şöbəsinin müdirəsi Gülya xanım yazdırır. Bundan sonra da uşağı almaq istəyən ailə axtarırlar. Gülya özü ləzgidir. Satılan uşaqların əksəriyyətini də alan ləzgi ailələrdir. Körpələrin satılması baş həkimin razılığı ilə baş tutur. Mən orada 1996-cı ildən işləyirəm. Dəqiq yadımdadır ki, 98-ci ildən bu yana orada imtina olunan körpələrdən yalnız biri uşaq evinə köçürülüb. Həmin körpə qız uşağı idi. 4 ay doğum evində qaldı. Körpə az qala yeriyirdi. Ona görə də məcbur qalıb köçürdülər. Çünki heç kim 4 aylıq uşağı satın alıb evinə aparmaq istəmir. Yeni körpəni alan analar ətraflarına deyirlər ki, körpəni dünyaya özü gətirib".

### "Mənim balam" deyirsə, körpə satlıqdır....

**Tibb bacısı deyir ki, körpə alverində əsas söz sahiblərindən biri olan Gülya xanımla baş həkimin çox yaxşı münasibətləri var:** "Ana körpəsindən imtina etdisə, Gülya xanım uşağa sahib çıxır. Doğum evində hamının bildiyi bir stabil qayda var. Deməli, Gülya xanım anadan imtina ərizəsi aldısa, gəlib körpəyə "mənim balam" deyirsə, bilinir ki, bu körpə satlıqdır. Belə körpələrin butulkasını, süni südünü, oyuncağını baş həkim verir. Biz körpəyə baxırıq, çimizdirir, yedizdiririk. Bir də özləri gəlib körpəni götürüb aparırdılar".

### "Bilirdik ki, artıq körpəni satırlar..."

**Tibb bacısı deyir ki, körpəyə müştəri çox qısa bir vaxtda tapılır:** "Anadan imtina ərizəsi alınandan sonra onu yola salırdılar. 2-3 gün, 1 həftə sonra körpəni gəlib alıb aparırdılar. Bilirdik ki, artıq körpəni satırlar. 10 min manatı kimdən necə alırdılar, bu hissəsini özləri bilirdilər. Gülya xanım dəfələrlə deyib ki, uşağın götürülməsi - yəni alınması 10 min manatdır. Mən onlardan şikayət edəcəkdim, əllərindən boğaza yığılmışdım, etdikləri qanunsuzluqları isə sübut etmək olmurdu. Ona görə də bir dəfə özlərinə dedim ki, bir qohumum var, körpə almaq istəyir. Məndən 10 min manat pul istədilər. Mənim şikayətlərimdən sonra körpəsindən imtina edən anaları 2 saylı Doğum Evinə köçürüb oradan satmağa başladılar. Ananı ora uşağı ilə birgə köçürüb oradan imtina ərizəsi yazdırırdılar. Oranın da baş həkim İmmi xanım idi".

### "Hətta körpənin adını da biz qoyduq - Mikayıl"

**Tibb bacısı deyir ki, Doğum Evinin baş həkiminin qanunsuzluqları saysız-hesabsızdır:** "Orada təkcə körpə alveri getmir. İşçiləri qul kimi istismar edirlər. Qanunda yazılıb ki, ana körpədən imtina edibsə, uşaq evinə verilməlidir. Körpənin doğum evində qalması qanunsuzdur. Sumqayıtın 1 saylı Doğum Evində qanunlar keçərli deyil. Elə olub ki, 2 ay, 3, hətta 4 ay ananın imtina etdiyi körpə orada qalıb. Uşağı götürən, yəni pul verib alan olmayıb. O uşaqlara məcbur olub biz baxmışıq. Bunlardan şikayət edəndə gətirib tibb işçilərinə 10-20 manat verirlər ki, 2 ay uşağa baxmısız. Axırıncı dəfə orada 2015-ci il yanvarın 14-də Fəridə Mirzəyeva körpə dünyaya gətirdi. Lakin uşaqdan imtina etdi. Körpəyə 2 ay biz baxdıq. Hətta körpənin adını da biz qoyduq - Mikayıl. O körpə Bakıda yaşayan milliyyətcə ləzgi olan bir ailəyə verildi, yəni satıldı. Mən şikayət edirəm, şikayətlərim araşdırılmır. Əvvəllər bizə deyirdilər ki, siz hara şikayətə getsəz, Zaman İsgəndərov (1 saylı Doğum Evinin baş həkimi Sevda İsgəndərlinin atası-red.) sizi məhv edər. Onun elə gücü də vardı. İndinin özündə də bütün orqanlarda Zaman İsgəndərovun qohum-qardaşı var. Hədə-qorxu ilə, şantajla adamları qorxudurlar. 1 il 3 aydır ki, şikayət edirəm. Baxan yoxdur".

### "Bunlar bizim əmək haqqımıza da göz dikirlər"

**Tibb bacısı deyir ki, əmək haqlarını onlara verməden işdinə işləyirdik.** Kimsə bizə ianə versəydi, onun hesabına yaşayırdıq. 1-2 manat ianə veriləndə sevinirdik ki, uşağımıza çörək ala biləcəyik.

Mənim əmək haqqı cədvəllərimdə imzam yoxdur. Mənə də başqaları kimi sadəcə əmək haqqı verməyiblər. Xəzinədar Solmaz İsmayılova idi. Baş həkimin sağ əli idi. Ştatda liftçi gedirdi. Doğum evini faktiki olaraq o idarə edirdi. Biz baş həkimin üzünü belə görmürdük. Hər ay kiçik tibb bacılarından 4, tibb bacılarından 7, həkimlərdən 10 manat fond pulu yığırdılar. Adını qoyurdular ki, sabun, dəsmal, lampa, kağız, yapışkan, qələm alırlar. Amma həmin əşyaları da biz alırdıq. Pullar hara gedirdi, bilmirdik. Yoldaşım gözdən əlildir, 2 övladımdan biri də xəstədir. Mən uşağın müalicəsini çatdırmıram. Bunlar bizim əmək haqqımıza da göz dikirlər".

### "...İşçilərə 1-2 manat, elə vaxt olur 20 qəpik pul verirlər"

**Tibb bacısı 1 saylı Doğum Evində toplanan xəraclar haqda bunları deyib:** "Orada konkret qiymətlər qoyulub - doğuş 300-350 manat, qeysəriyyə əməliyyatı 600-650 manat. İndi Sumqayıtda icra başçısı dəyişib, bunu yığışdırıblar. Daha doğrusu, pulu baş tibb bacısı Qızılgül Bünyadovanın əli ilə gizlin alırlar. Hər doğuşdan ona 170 manat verirlər. Yerdə qalədiblər: "1998-ci ildən 2004-cü ilə qədər Sumqayıtdakı 1 saylı Doğum Evində çalışanların əmək haqqını özünə götürürdülər. 2004-cü ilə qədər bizim əmək haqqını bunlar alırdı. 2004-də kart sisteminə keçid oldu, əmək haqqını özümüz aldıq. Buna qədər Allahın ümilan puldan isə işçilərə 1-2 manat, elə vaxt olur 20 qəpik pul verirlər. Şikayət edənlərə də deyirlər ki, Heydər Əliyev "səhiyyəni xalq dolandırır" deyib, ona görə də bizə xalq uşaqlarına baxdığımıza görə nə qədər istəyir pul verir. Rüşvətə qoyduqları ad budur. Biz şikayət edəndə deyirlər ki, həkimlərə hamı öz uşağına görə pul verir. Başa düşürük ki, kimsə nə isə verir. Amma bizi niyə istismar edirlər? Biz niyə hər ay maaşımızdan 7 manat verməliyik? Niyə ananın atıb getdiyi körpəyə 3-4 ay baxmalıyıq? Axı bunun üçün dövlətin büdcəsi hesabına fəaliyyət göstərən uşaq evi var. Bizi faktiki istismar edirlər. 170 manat əmək haqqı qarşılığında bizi istismar edirlər".

### "Bizi rüşvətə təhrik edir"

**Samirə Babayeva rüşvət almağa təhrik edildiklərini deyir:** "Mən baş həkimin özünə şikayət etmişəm. O da mənə konkret deyir ki, get, kimə istəyirsən şikayət elə. Mən belə işləyirəm. Deyirik ki, camaatdan pul almayın. Deyir ki, alıb sizə veririk. Bizə 20 qəpik pul verir. Həmin pul bizə lazım deyil. Şəffaf işləsinlər. Bizi rüşvətə təhrik edir. Səhiyyə şöbəsinin müdiri Ələkbər Tağıyevə şikayət etdim. O, sadəcə, İsgəndərovlarla bacara bilmir. Onlara heç kimin gücü çatmır. Paş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyevin qəbulunda olmuşam.

Mənim kimi Sumqayıt 1 saylı Doğum Evində haqsızlıqla, istismarla üz-üzə qalan işçilər çoxdu. Amma danışmağa qorxurlar. Çünki İsgəndərovlar Sumqayıtda oturuşublar. Mənimlə bərabər 2 xanım da şikayət edirdi. Onların şantajla şikayətlərindən əl çəkmələrinə nail oldular. Hara gedirsən, bunların adamlarıdır. Baş həkim mənə heç bir əsas olmadan iki dəfə xəbərdarlıq elan edib. Bunu ona görə edir ki, işdən çıxarsın. Oradakı qanunsuzluqlar haqda kimsə danışmasın. Mənə açıq-aşkar deyirlər ki, 3-cü xəbərdarlıqdan sonra səni işdən qovacaqlar".

❑ E.MƏMMƏDƏLİYEV

**P.S.** *Yazıda adı hallanan hər kəsi dinləməyə, mövqeyini dərc etməyə hazırıq.*

YENİ MÜSAVAT
N 8 (6329) 13 yanvar 2016

**"Azadlıq" qəzetinin 12 yanvar 2016-cı il tarixli sayında yer alan "Bir statusun ətrafına yığışanlar" adlı məqalədə "Yeni Müsavat" qəzeti hökumətin sifarişi ilə işləməkdə ittiham edilərək, İnqilab Kərimovun statusunu ictimailəşdirməkdə suçlanır.**

# "Yeni Müsavat"dan Əli Kərimliyə cavab

## Azər Ayxan: "Hansısa nazirin əmisi oğlu müxalifət liderlərindən birinin oğlunun başını kəsəcəyini bəyan etsəydi, AXCP sədrinin çığırtısından qulaq tutulardı"

Qəzet yazır ki, ölkədə mühüm hadisələr baş verir, sosial-iqtisadi böhran qapını kəsdirib və belə bir vaxtda "Yeni Müsavat"ın diqqətini İnqilab Kərimovun facebook statusuna yönəldib. Bunun ardından qəzet iddia edir ki, bu mövzuya toxunmaqda məqsəd Əli Kərimlinin adını hallandırmaqdır.

**"Azadlıq" qəzetinin yazdığı, müxtəlif qınaq və ittihamlarla müşayiət edilən bu yazıya "Yeni Müsavat" qəzetinin baş redaktorunun birinci müavini Azər Ayxan cavab verərək, faktiki Əli Kərimlinin idarəsində olan bu qəzetin obyektiv bir yazıdan bu dərəcədə "qəzəblənməsini" əsassız adlandırıb:** "Əli Kərimli əmisi oğlunun cinayətə bərabər statusunu işıqlandırdığımız üçün "Yeni Müsavat" qəzetinə hücum təşkil etdirib. Nəzarətində olan və faktiki olaraq baş redaktorluğunu icra etdiyi "Azadlıq" qəzetində bununla bağlı məqalə yazıb ki, guya biz hökumətin sifarişi ilə Azərbaycanda baş verən son iqtisadi-siyasi proseslərdən diqqəti yayındırmaq üçün əmisi oğlu İnqilab Kərimovun məlum statusunu dövriyyəyə buraxmışıq. Bu yanlış yanaşmadır. Mətbuatın işi yalnız ölkədə baş verən iqtisadi prosesləri işıqlandırmaq deyil. Bizim qəzetimiz 16 səhifədir, o cümlədən musavat.com saytında xeyli xəbərlər gedir ki, o xəbərlərdən biri də İnqilab Kərimovun məlum statusu ilə bağlı yazıdır. İnqilab Kərimov sıradan bir adam deyil. O, Azərbaycanın müxalifət partiyalarından birinin sədrinin əmisi oğludur. Bu adamlar özlərini demokrat adlandırırlar. Bildirirlər ki, Azərbaycanda iqtidara gəlib, ölkəni və milləti bu vəziyyətdən qurtaracaqlar, ölkəyə demokratiya gətirəcəklər. Amma bir yandan da ən yaxın çevrələrindəki adamlar sosial şəbəkələrdə terror küləkləri əsdirir. Əli Kərimlinin yaxın ailə üzvü, qardaşı qədər ona yaxın olan İnqilab Kərimov artıq neçənci dəfədir ki, terrora çağırış edir. Bir dəfə İŞİD-i Azərbaycana çağırmışdı, bildirmişdi ki, məhkəmədə hansısa saxtakarlıq edən hakimləri, yalançı şahidlik edən şəxsləri İŞİD üsulu ilə aradan götürmək lazımdır. İndi isə ölkənin nazirlərindən birinin oğlunun başını kəsib qoltuğunda gəzdirəcəyini deyib. Bu, çox qorxulu bir tendensiyadır. Bunu ilk növbədə Əli Kərimli özü qınamalı idi, onun nəzarətindəki qəzet qınamalı idi. İnqilabın bu statusunu pisləyən bəyanat verməli idi. Bunu etmədiyi bir yana, həmin terrora çağıran statusu qınayan qəzetə, jurnalistlərə böhtan atmaqla məşğuldu".

**A.Ayxan onu da qeyd edib ki, İnqilab Kərimovun sözgedən statusu həm hüquqi, həm də mənəvi-psixoloji baxımdan çox qorxulu bir çağırışdır və bu, qınanmalıdır:** "Biz terrora çağırış edən bir adamın bu çağırışını qınamışıq. Əli Kərimlinin adını da ona görə çəkmişik ki, bu insan özünü AXCP sədrinin əsgəri sayır və bunu dəfələrlə bəyan edir. Biz də diqqəti buna yönəldirik ki, Azərbaycana firavanlıq gətirəcəyini iddia edən, özünü əsl demokrat, prinsipial müxalif lider adlandıran AXCP sədrinin ən yaxınındakı şəxs - İnqilab Kərimov belə status yazır. Və belə çıxır ki, sabah, Allah eləməmiş, AXCP hakimiyyətə gələrsə, Kərimlilər nəslinin nümayəndələri xoşları gəlmədikləri adamların - müxalifətçilərin, jurnalistlərin başını kəsib futbol oynayacaqlar?! Təsəvvür edin ki, bu çağırışı hansısa bir nazirin əmisi oğlu edəydi. Facebookda kiminsə,



**"Əli Kərimli əmisi oğlunun insanlığa zidd çağırışını qınamaq əvəzinə, növbəti dəfə bizə şər atıb. Məqsədi iz azdırmaq, ictimai qınaqdan yayınmaqdır"**

**"İndi belə çıxır ki, bunlar iqtidara gəlsələr, müxalifətçilərin, jurnalistlərin başını kəsib futbol oynayacaqlar?!"**

lap tutaq ki, hansısa müxalifət liderinin övladının başını kəsəcəyi haqda status yazaydı. O zaman Əli Kərimlinin çığırtısı ölkəni başına götürərdi".

**"Biz bu qorxunc və hüquqa zidd çağırışa biganə qalmayaraq yazılar dərc etmişik. Çox da doğru etmişik" - deyən baş redaktor müavini daha sonra bunları söyləyib:** "Əgər hüquq-mühafizə orqanları bundan istifadə edərək cinayət işi açıbsa, bu, bizim problemimiz deyil. Bu, Əli Kərimlinin problemidir. Getsin, əmisi oğlunun başına ağıl qoysun, tərbiyələndirsin. Bunu bacarmırsa, İnqilabın bu insanlığa zidd çağırışını pisləsin. Əli Kərimli əmisi oğlunun insanlığa zidd çağırışını qınamaq əvəzinə, növbəti dəfə bizə şər atıb. Məqsədi iz azdırmaq, ictimai qınaqdan yayınmaqdır. Özlərini sığortalamaq üçün yazının girişində qeyd ediblər ki, bu, İnqilab Kərimovun qeyri-ciddi statusudur, zarafatıdır. O zaman Əli Kərimli ətrafına ciddi adamlar yığsın. İndi biz də onlardan soruşuruq ki, xalqın bu cür ciddi bir problemlə üzləşdiyi zamanda belə uğursuz zarafat etmək bir partiya sədrinə, onun çevrəsinə yaraşarmı? Əlbəttə yaraşmaz".

**Redaktor müavini həmçinin "Azadlıq" qəzetinin başqa bir məqalədə Zahid Orucun müsahibəsi ilə bağlı yazdığı fikirlərə də münasibət bildirib. O, AXCP rəhbərini alternativ fikrə hörmətlə yanaşmağa çağırıb:** "Əli Kərimli bizim Zahid Orucla müsahibəmizə də toxunaraq başqa bir imza ilə bildirib ki, guya hakimiyyətdən sifariş alaraq, Zahid Orucu Əli Kərimlinin əleyhinə danışdırmışıq. Təbii ki, hər dəfə olduğu kimi, bu dəfə də yalan yazır, şər söyləyir. Biz müxalif bir partiya sədrinin videomüsahibəsində hakimiyyəti hədəfə alaraq söylədiyi fikrə hakimiyyət sözçüsünün münasibətini almışıq. Əli Kərimli deyib ki, mən hakimiyyəti götürməyə hazıram. Qarşı tərəfin bununla bağlı mövqeyini dərc etmişik və burada Əli Kərimlinin fikirlərinə istinad etmişik. Əli Kərimlinin bizi boykot etməsinə baxmayaraq, biz onun fikrini də tirajlamışıq ki, AXCP sədri belə bir söz deyib və biz də onun bu fikrinə alternativ olaraq, Zahid Orucu danışdırmışıq. Zahid Oruc müsahibəsində nə deyibsə, o, bizim problemimiz deyil. Qəzetin bir işi də bu cür polemikalar təşkil etmək, müxtəlif fikirlərə rəylər almaqdır. Əli Kərimli necə demokratdır ki, alternativ fikri süngü ilə qarşılayır. Əli Kərimli bu hakimiyyətdən necə demokratiya tələb edir ki, özü demokratiyanın təməl prinsipi olan söz azadlığına, fikir müxtəlifliyinə dözümsüzlük göstərir?"

❑ **Nərgiz LİFTİYEVA**

# Dollar kreditlərinə çarə tapılmır

## Əksər ekspertlər bununla bağlı təklif verir, ancaq...

**Əhalinin dollarla olan kreditlərinin məsələsi ciddiləşib. Artıq ikinci devalvasiya vətəndaşların kredit borclarını ödəməsini tamamilə mümkünsüz edib. Əksər ekspertlər dolların bahalaşmasının ağırlığını əhalinin üzərindən götürmək üçün təkliflər versələr də, qarşı tərəf bunu dəstəkləmir. Üstəlik, banklar direniş göstərirlər. Bildirilir ki, banklar əksər hallarda kredit borcunu dolların 1,80 manat kursu ilə tələb edirlər.**

Ekspertlər daha çox məsuliyyətin Mərkəzi Bankın üzərinə düşdüyünü vurğulayırlar. Son olaraq ekspert Fikrət Yusifov da belə bir təklif verib: "Mərkəzi Bank özünün valyuta rezervlərindən, yaxud xaricdən borclanmaq hesabına son devalvasiya nəticəsində dollarla götürülən kreditlərə görə yaranmış vəziyyəti aradan qaldırmaq üçün manatın yeni məzənnəsi ilə köhnə məzənnəsi arasındakı fərqi banklara ödəməlidir ki, bununla əhali xarici valyutada olan borclarını manatın köhnə (1 dollar 1,05 manat) məzənnəsi ilə ödəyə bilsinlər. Bunu hökumət deyil, məhz Mərkəzi Bank etməlidir. Çünki bir tərəfdən o, yaranmış vəziyyətə görə məsuliyyət daşıyır, digər tərəfdən isə problemləri yoluna qoymaq üçün kifayət qədər geniş imkanlara malikdir".

**Ekspert Vüqar Bayramov da qeyd edib ki, Mərkəzi Bankın vətəndaşlar üçün əlavə xərc yaradan prosesə müdaxilə etməsinə ehtiyac var. O hesab edir ki, borcu olan şəxs kommersiya bankının öz maraqlarına uyğunlaşdırdığı kursa deyil, Mərkəzi Bankın rəsmi məzənnəsinə uyğun ödəniş etməlidir ki, banklar tərəfindən aldadılmasın:** "Aylıq ödənişin Mərkəzi Bankın rəsmi məzənnəsinə uyğun olaraq manatla edilməsinin yeni qaydalara daxil edilməsi vacibdir. Bu arada inanmaq istərdim ki, ikinci devalvasiyadan sonra xarici valyuta ilə kreditləri olanlar üçün Qazaxıstan təcrübəsinə uyğun olaraq dövlət tərəfindən kompensasiyanın ödənilməsi ilə bağlı təklifim də yaxın zamanlarda Mərkəzi Bank tərəfindən dəyəndiriləcək".

**V.Bayramov qeyd edib ki, Azərbaycanda bütün valyuta növləri daxil olmaqla ümumi kredit portfelinin dəyəri 19 milyard 744 milyon manatdır. Xarici valyutada olan kreditlərin cəmi isə 7 milyard 477 milyon dollardır:** "Bu isə o deməkdir ki, dollarla olan kreditlər ikinci devalvasiyadan öncə milli valyuta ifadəsində 7 milyard 851 milyon manat idisə, hazırda rəsmi məzənnə ilə 11 milyard 664 milyon manatadək yüksəlib. Deməli, sonuncu devalvasiyadan sonra vətəndaşlar və iş adamları əlavə olaraq banklara 3 milyard 813 milyon manat vəsait ödəməlidirlər. Mərkəzi Bank kompensasiya verməyi halda vətəndaşlar və biznes subyektləri daxil olmaqla, kredit borcu olanların bu fərqi örtməsi mümkünsüz görsənir. Çünki söhbət heç də



kiçik rəqəmdən getmir. Əmək haqları manatla olan kredit götürənlərin bu öhdəliyi qaldırması elə də asan deyil. Bu isə o deməkdir ki, Mərkəzi Bank, Qazaxıstanda olduğu kimi, ən azı istehlak, yəni əhalinin götürdüyü kreditlər üzrə fərqi tam olaraq kompensasiya etməlidir. İkinci devalvasiyadan öncə banklarda olan əmanətlərin həcmi 7 milyard 89 milyon manat idi. Bunun isə cəmi 20 faizi yəni 1 milyard 417 milyon manati milli valyutada saxlanılırdı. Deməli, banklarda xarici valyuta ilə olan əmanətlərin məbləği təxminən 5 milyard 401 milyon dollar idi. Qeyd oluna bilər ki, xarici valyutada saxlanılan əmanətlərin də manat ifadəsində artımlar olub. Amma etiraf etmək lazımdır ki, istehlak kreditləri götürən vətəndaşlarımızın çoxunun banklarda əmanətləri yoxdur və son devalvasiya, sadəcə, onların kredit borclarını manat ifadəsində artırıb".

**Onun sözlərinə görə, dollar ilə olan kreditlərdəki fərqi kompensasiya etmək üçün mənbə də var:** "Dövlət Neft Fondunun bu il üçün xərcləri 8 milyard 181 milyon manatdır. Fondun gəlirləri dollar, xərcləmələri isə manatladır. Əgər ikinci devalvasiya olmasaydı, o zaman fond 7 milyard 791 milyon dollar bazarda satıb büdcə öhdəliklərini yerinə yetirməli idi. Hazırda isə fond cəmi 5 milyard 244 milyon dollar xərcləməli olacaq. Deməli, ikinci devalvasiyadan sonra Neft Fondu 2 milyard 547 milyon dollara qənaət etmiş olacaq. Bu isə Mərkəzi Bankın rəsmi məzənnəsi ilə 3 milyard 973 milyon manat qənaət deməkdir. Bu qənaət isə imkan verir ki, vətəndaşların dollarla olan istehlak kreditləri üzrə fərqi kompensasiya etmək mümkün olsun. Bu baxımdan, problemli kreditlərin həcminin artmaması, bank sektorunun son devalvasiyadan ciddi zərərlə çıxmaması və ən əsası əhalinin ödəmə qabiliyyətinin zəifləməməsi üçün Mərkəzi Bankın kompensasiya ödəməsi olduqca vacibdir. Kompensasiya ilə manatın sonuncu dəyərsizləşməsinin neqativ təsirlərini ciddi şəkildə aradan qaldırmaq olar".

❑ **Röya RƏFİYEVA**

# "Türkiyə-Rusiya münasibətləri nə qədər yaxşı olsa, Qarabağ münaqişəsi daha tez həllini tapar"



## Professor İlham Rəhimov: "Tələbəlik illərində Putinlə birgə məşq etmişik, amma rəqib kimi güləşməmişik"

## "Manatın üzən kursuna 10 ay əvvəldən keçmək lazım idi"

**İctimaiyyət onu həm elmi işləri dünyanın bir çox ölkələrində dərc olunmuş məşhur hüquqşünas alim, həm də barəsində hətta "Forbes" jurnalının yazdığı tanınmış biznesmen kimi tanıyır. Söhbət hüquq üzrə professor və iş adamı, Rusiya prezidenti Vladimir Putinin tələbəlik yoldaşı və dostu İlham Rəhimovdan gedir.**



1970-ci ildə hüquq fakültəsinə daxil olandan sonra inşaat dəstəsində

*Respublikada onu həmçinin ictimai-siyasi həyatın bir çox məsələləri üzrə müstəqil, azad fikirləri və mövqeyi ilə fərqlənən insan kimi tanıyırlar. Nəhayət, bir çoxları ona xeyriyyə fəaliyyətinə - tələbələrə, xəstələrə, tanımadığı sadə vətəndaşlara yardımına görə minnətdardırlar. Dostları deyir ki, onun hamı kimi öz nöqsanları var, lakin onun xarakterindəki bir məqam bu qüsurları örtür - bu, sədaqət və inandığı adamlarla münasibətlərdəki sabitlikdir.*

*Yanvarın 14-də İlham Rəhimovun 65 yaşı tamam olub. Bu ərəfədə sputnik.az saytının əməkdaşı onunla görüşərək müsahibə götürüb. Müsahibəni təqdim edirik.*

***- Cənab Rəhimov, Sizi yubileyiniz münasibətilə təbrik edirik. Siz öz ad gününüzü Azərbaycan və bütün dünya üçün belə çətin bir dövrdə qeyd edirsiniz. Beynəlxalq hüquq üzrə ixtisaslaşmış hüquqşünas kimi 2016-cı ildə Azərbaycan, Rusiya və bütün neft hasil edən ölkələrin axırının necə olacağını proqnozlaşdıra bilərsinizmi?***

- Təbriklərə görə çox sağ olun. Sizin dediyiniz "belə bir çətin dövrdə" ad gününü yalnız mən deyil, planetimizdə milyonlarla insan qeyd edir. Təəssüf ki, böyük ehtimalla bir ildən sonra da bu günü analoji, bəlkə də daha pis vəziyyətdə keçirməli olacağam. Bir düzəliş etmək istəyirəm: mən beynəlxalq yox, cinayət hüququ üzrə ixtisaslaşmış hüquqşünasam. Sualınızın ikinci hissəsinə gəldikdə, mənə respublikamızın, həmçinin iqtisadiyyatı birbaşa neftdən asılı olan digər ölkələrin gələcək iqtisadi vəziyyətini proqnozlaşdırmaq çətindir. Bu proqnozu iqtisadçılar verməlidirlər və bu proqnozlar həmişə ehtimal xarakteri daşıyır. Buna baxmayaraq, Puankare demişkən, "heç öncədən görməməkdənsə, tam inamlı olmadan öncə görmək daha yaxşıdır". Mən ümumilikdə proqnozlaşdırma nəzəriyyəsi ilə tanışam və bu sahədəki biliklərimi cinayətkarlığa nəzərən tətbiq etməyə cəhd eləmişəm. Ona görə mənə o cümlədən respublikamızda cinayətkarlığın gələcək vəziyyətini proqnozlaşdırmağa cəhd etmək daha asandır.



LDU 1971-ci il. Hüquq fakültəsi. V.Putinlə sambo məşqində

***- Manatın üzən məzənnəsi Sizin üçün gözlənilməz oldu, yoxsa hadisələrin bu istiqamətdə inkişafını gözləyirdiniz?***

- Fikrimcə, istənilən az-çox savadı olan adama indi aydın oldu ki, manatın üzən kursuna 10 ay əvvəldən keçmək daha məqsədəuyğun olardı. Şəxsən mən əmin idim ki, sonda biz bu addımı atmalıyıq. Ona görə də mənim üçün hadisələrin bu cür inkişafı gözlənilməzlik yox, gözlənilən nəticə idi.

***- Əgər Sizə belə bir vəziyyətdə nə etmək sualı ilə müraciət etsələr, nə məsləhət görərdiniz? Çünki analoji proseslər Sizin tez-tez səfər etdiyiniz və biznes-elitası ilə yaxşı tanış olduğunuz Rusiyada da baş verib...***

- Belə hallarda diqqət hüquqşünaslara deyil, iqtisadçılara yönəlir. Əgər mənə müraciət etsələr, əmanətlərini dollar və ya avroda saxlamağı məsləhət görərdim. Güman edirəm ki, bu gün bizim iqtisadçılar Rusiyanın təcrübəsini dərindən öyrənməli və nəyi səhv, nəyi isə düz etdiklərinə baxmalıdırlar.

***- Rusiya və Türkiyə arasındakı münaqişəyə necə yanaşırsınız və necə deyərlər, "odla su arasında qalmaq" ehtimalı olan Azərbaycan hansı mövqeyi tutmalıdır?***

- Mən baş verənlərdən dərin təəssüf hissi keçirirəm. Çünki Vladimir Vladimiroviç Putin hakimiyyətə gələndən sonrakı 15 il ərzində Rusiya və Türkiyə arasındakı münasibətlərin, bütün sahələrdəki xoş əlaqələrin yaxşılaşmasına və təkmilləşməsinə can atanların sırasında olmuşam. Söhbət təbii ki, rəsmi dairələrin münasibətlərindən gedir. Çünki bu iki ölkənin xalqları xeyli öncədən ünsiyyət qurmağa və bir-birilərini tanımağa başlayıblar. Bu isə təbii olaraq dövlətlərarası münasibətlərə təsirsiz ötüşməyə bilməzdi. Belə ki, mənim təşəbbüsümlə ilk dəfə olaraq həm Türkiyədə, həm də Rusiyada iki ölkə parlamentarilərinin görüşləri təşkil olundu. Bu dövr ərzində mənim yardımımla iki ölkənin hüquq cameəsi arasında kifayət qədər sıx əlaqələr qurulub. Biz hətta çox nüfuzlu Türkiyə-Rusiya Hüquq Forumunu yarada bilmişik və onun ilk iclası İstanbulda keçib. Mənim bu iki ölkə arasında sıx əlaqələr qurulması istəyimin əsasında həm də o dayanırdı ki, Qarabağ probleminin ədalətli həll olunmasında bu münasibətlərin xalqım və dövlətim üçün necə vacib olduğunu başa düşürdüm.

Sualınızın ikinci hissəsinə gəldikdə isə deyə bilərəm ki, Türkiyə bizə qardaş ölkədir, biz bir xalqıq. Bu hamıya aydındır və məlumdur. Rusiya yalnız bizim qonşumuz deyil, həm də bizimlə iqtisadi, tarixi, mədəni, sosial, humanitar və s. cəhətdən sıx bağlı olan dövlətdir. Ona görə də güman edirəm ki, rəsmi Azərbaycan bu münaqişəyə münasibətini müəyyən edərkən təbii ki, ədalət prinsiplərini əsas tutaraq bu şərtləri nəzərə almalıdır. Lakin təəssüf ki, ayrı-ayrı siyasətçilərimizin və media orqanlarımızın mövcud münaqişənin yumşaldılmasına deyil, əksinə, daha da qızışdırılmasına yönəlik fikirlərinə rast gəlirik. Belə bir təəssürat yaranır ki, hətta onlardan bəziləri baş verənlərə sevinir. Bu, vəziyyətin səthi, bəsirətsiz və ən əsası çox təhlükəli başa düşülməsinin göstəricisidir. Bizim hansı problemimizin olduğunu və onun həllində kimin əsas rol oynadığını unutmaq lazım deyil. Çünki Türkiyə və Rusiya arasındakı münasibətlər nə qədər yaxşı olsa, Qarabağ münaqişəsinin ədalətli həlli şansları bir o qədər yüksək olar.

***- Biz bilirik ki, Siz bunu reklam etməyi xoşlamırsınız, amma yenə də: öz qrup yoldaşınızın - Rusiya prezidenti Vladimir Putinin bütün addımlarını dəstəkləyirsinizmi? Yoxsa hesab edirsiniz ki, beynəlxalq hüquq baxımından o, nədəsə səhv edir?***

- Mən Rusiya prezidentinin bu istiqamətdə addımlarını qiymətləndirmək səlahiyyətində deyiləm. Lakin xüsusi olaraq qeyd edə və əminliklə deyə bilərəm ki, Vladimir Vladimiroviç Putin həqiqətən Rusiya və Türkiyənin münasibətlərini yüksək qiymətləndirirdi və bu münasibətlərin qədrini bilirdi. Ona görə də mən onun baş verən faktdan dərin məyusluğunu başa düşürəm. Bu fakt olmamalı idi və olmaya da bilərdi. Bilirsiniz, mən onu tələbəlik illərindən tanıyıram və deyə bilərəm ki, Vladimir Vladimiroviç bütün səviyyəli münasibətlər və dostluqlarda çox etibarlı və sədaqətli insandır. İndi həm Rusiyada, həm Türkiyədə, həm Azərbaycanda və yəqin ki, başqa ölkələrdə də milyonlarla insan münasibətlərin düzəlməsini və əvvəlki dövrlərdə olduğu kimi mehriban və yüksək səviyyədə olmasını istəyir.

***- Putin və digər qrup yoldaşlarınızla sonuncu təkbətək görüşünüz nə vaxt olub və bu cür görüşlərdə siz siyasətdən danışırsınızmı? Mən Qarabağ məsələsi, Suriya, Türkiyə və ABŞ mövzularını nəzərdə tuturam.***

- Putinin vaxtı olanda görüşürük. Digər qrup yoldaşlarımızla da görüşürük, özü də təkcə Moskva və Sankt-Peterburqda yox, həm də Bakıda. Viktor Xmarin, Vitali Mozyakov, İqor Sobolevski, Aleksandr Bastrıkin və bir çox başqaları tez-tez mənə qonaq gəlirlər. Təbii ki, siyasətdən danışırıq, bunsuz necə ola bilər? Lakin daha çox tələbəlik illərindən və müəllimlərimizdən danışırıq.

***- Əgər görüşürsünüzsə, bilmək maraqlı olardı: Putin həqiqətən sərt siyasətçidir, yoxsa dostların əhatəsində başqadır?***

- Dostların əhatəsində Vladimir Putin, sadəcə, gözəl dost, qonaqlarını qəbul edən hörmətli və gülərüz ev sahibidir.

***- Siz də Putin kimi idmanla məşğul olursunuz. Tələbəlik illərində onunla güləşmisiniz? Kim qalib gəlib? Bircə deməyin ki, dostluq...***

- Tələbəlik illərində biz bir yerdə məşq etmişik, amma rəqib kimi güləşməmişik.

### "Təbrikləri mənə sevən və hörmət edənlərdən gözləyirəm..."



Mən və V.Xmarin tələbəlik illərində

***- Bir daha Sizi ürəkdən təbrik edirik. Sizin üçün belə bir əlamətdar gündə Sizə daha öz suallarımızla əziyyət verməyəcəyik və sonda əgər mümkünsə, Sizdən iki qeyri-siyasi suala cavab verməyi xahiş edirik. Sizin üçün bu sevincli gündə daha çox kimin təbrikini gözləyirsiniz: qohumların, yoxsa dostların? Və hansı hədiyyələri almağı daha çox xoşlayırsınız?***

- Bir daha mənim şəxsimə göstərdiyiniz diqqətə görə sizə minnətdarlığımı bildirirəm. Məni sevən və hörmət edənlərdən təbriklər gözləyirəm. Bunu adi telefon zəngi ilə etmək kifayətdir. Mənim üçün ən əziz və qiymətli hədiyyə özümün özümə hazırladığım hədiyyədir: yubileyim ərəfəsində Sankt-Peterburqda mənim cəzanın əxlaqi tərəfinə həsr olunmuş növbəti kitabım dərc olunacaq. Məhz bu hədiyyəni böyük səbirsizliklə gözləyirəm.

YENİ MÜSAVAT
N 8 (6329) 13 yanvar 2016

**Neft pullarının kəskin şəkildə azalması şəraitində manatın dəyərini itirməsi əhalinin bütün kateqoriyalarının gəlirlərini azaldıb. Odur ki, indiki situasiya sadə həyat yaşayan insanlarla yanaşı, digər kəsimin, müqayisədə daha komfortlu yaşayan insanların da durumuna müəyyən təsir edib.**



# Deputatlar maaş artımı üçün müraciət etməyəcək

## "2 min manat civarında əmək haqqı alırıq, min şükür"

Nazirlər Kabinetinin sonuncu toplantısında ölkə başçısı aztəminatlı ailələrin əmək haqqı və təqaüdlərinin artırılmasının zəruriliyini bildirərək tapşırıqlar verdi. Maraqlıdır, devalvasiyadan sonra maaşının dəyəri yarıbayarı azalan deputatlar necə, əmək haqqının artırılması ilə bağlı hökumətə müraciət edəcəklərmi?

**Deputat Fazil Mustafa** "Yeni Müsavat"a bildirdi ki, əgər deputat maaşını Rusiya və digər qonşu dövlətlərlə müqayisə etsəniz, bizdə daha aşağı olduğunu görə bilərsiniz: "Xüsusilə də indiki şərtlərdə dolların məzənnəsi ilə götürdükdə, daha da azaldığı görünəcək. Bununla belə, indiki çətin durumda bu məsələnin gündəmə gətirilməsini doğru saymıram. İlk növbədə aztəminatlı insanların vəziyyətini düşünərək, onlara aid əmək haqqı və pensiyaları artırmaq vacibdir".

Parlamentdə ən çox deputatları təmsil olunan YAP-da necə, deputatların maaş artımı ilə bağlı təşəbbüs və ya müzakirələr varmı?

**Deputat, Milli Məclisin komitə sədri Siyavuş Novruzov bildirdi ki, hakim partiyada deputatların maaşının artırılması ilə əlaqədar müzakirə aparılmayıb:** "Hələlik bu barədə hər hansı müzakirə olmayıb. Cənab prezident ilk növbədə aztəminatlı ailələr, pensiyaçılar, sosial müdafiəyə ehtiyacı olanların durumunun yaxşılaşdırılması ilə bağlı müvafiq qurumlara tapşırıqlar verib. Hazırda bununla bağlı işlər aparılır. Sonrakı mərhələdə digər məsələlərə baxılacaq və yəqin ki, müvafiq addımlar atılacaq. Ümumiyyətlə, qiymətlərə nəzarət gücləndirilsə, süni qiymət artımı məsələləri olmasa, elə ciddi problemlər ortaya çıxmayacaq".

**Deputat Əli Məsimli də maaş artımı barədə təklif verməyəcək:** "Reallıq belədir ki, hər maaşın da öz xərcləri, öz problemləri var. Bununla belə, tam səmimi deyirəm ki, indiki situasiyada müəllimin, həkimin, elm, mədəniyyət, incəsənət və digər sahələrdə çalışanların maaşlarının artmasını istəyirəm ki, onların cibində heç olmasa, özünün və ailəsinin müəyyən tələbatını ödəməyə yetərli pulları olsun, seçicilərlə görüşəndə pafosdan uzaq söhbətlər zamanı onların göstərdiyi təbii səmimiyyət müqabilində deməyə sözüm olsun".

**Deputat Fəzail Ağamalı da dedi ki, qəti şəkildə deputatların maaşının artırılmasının tərəfdarı deyil:** "Bu maaşa da min şükür. Sadəcə, qənaətcil olmalıyıq, israfçılığa yol verməməliyik, pulu daha zəruri məqsədlər üçün xərcləməliyik. Çatsa da, çatmasa da, mən maaş artımının tərəfdarı deyiləm. Deputatların maaşının artırılması təklifi cəmiyyət tərəfindən haqlı olaraq düzgün qəbul edilməz. 2 min manat civarında maaş alırıq. Bu, kifayət qədər yüksək məbləğdir. Ona görə də indiki vəziyyətdə maaş artımı barədə düşünmək belə lazım deyil".

**Deputat Zahid Oruc mövzu ilə bağlı danışarkən dedi ki, parlament üzvü olmaq xeyli üstünlüklər və imtiyazlar yaratsa da, çoxlu yazılmış və qeyri-rəsmi öhdəlikləri də inkarolunmazdır:** "Dövlət qulluqçularından fərqli olaraq, vətəndaşların daha həssaslıqla və tələbkarlıqla yanaşdığı orqanın ünvanı heç kəsə sirr deyil. Əgər uçqar bir əyalətdə bir qurd insana xəsarət yetirirsə, o andaca millət vəkilinin üstünə saysız-hesabsız müraciətlər daxil olur və deputatın canavara qarşı mübarizədə nə kimi fədakarlıqlar edə biləcəyi soruşulur, istənilir, yaxud tələb edilir. İstənilən vətəndaşın uğradığı çətinliyi hər hansı məmurla bağlı, yaxud həyati bir problem kimi də qəbul edə bilərsiz. Belə olan halda, heç kəs xalqın təmsilçisinin xərclərini hesablamayacaq, yalnız onun buna borclu olduğunu söyləyəcək. O üzdən hazırkı devalvasiya canavarı qarşısında millət vəkilinin maaşını artırmaq təklifi onsuz da cəmiyyət rəyində üzərimizə gələn haqlı-haqsız ittihamları bir az da artırar və dollar krediti öhdəliyi olanlardan oğurluq sayılardı". **Z.Oruc dedi ki, pul heç zaman çox olmur:** "Yaşayış minimumu haqqında qanun və onun həddi olsa da, yaşayış maksimumunun kriteriyası müəyyənləşməyib. Xüsusilə də ictimai şəxs olanlar statuslarına görə müxtəlif imkanların sahibi olmağa can atırlar. Hər halda, Amerika konqresmenlərinin və Avropa parlamentarilərinin elan etdikləri rəsmi bəyannamədə onların orta təbəqədən də yuxarıda dayandığı məlum olur. Azərbaycan parlamentarisinin maddi və mənəvi obrazı millətindən kəskin fərqlənə bilməz. Çünki nə qədər ütülü geyinsən də unutmamalısan ki, sənin libasın xalqın əynindəkilərdir".

❑ **Cavid TURAN**

# "Qara yumor" efirdən yığışdırılır

**Ötən ilin əvvəlindən etibarən telekanallarla bağlı aparılan siyasət yeni xətt üzrə davam edir. Öncə ekranlardan sosial yüklü verilişlər yığışdırıldı. Artıq ailəiçi qayğılar, ailə dramı, ailəsini atan kişilərin hekayəsindən ibarət proqramlar qapadıldı. Ardınca milli efirə moda, əyləncə xarakterli verilişləri gətirdilər. İndi isə telekanallarda, ayrı-ayrı məmurlara ünvanlı tənqid olan yumoristik verilişlərə son qoyulub. Vaxtilə insanların sosial problemlərini, qayğılarını mövzu edən skeclər, eləcə də yumoristik proqramlar artıq "məsləhət görülmür".**



**Arif Əliyev:** "Bilirsiz, bundan sonrakı mərhələdə nə olacaq?"

"Yeni Müsavat" xatırladır ki, vaxtilə belə proqramlar hakimiyyət tərəfindən də təqdir olunurdu. Xatırlayırsınızsa, hətta "Bakılı oğlanlar" komandasının hazırladığı səhnəciklərdə mərhum prezident Heydər Əliyevin obrazını yaradırdılar. Onun özü də komandanın üzvləri ilə görüşdə bu səhnələrə çox güldüyünü deyir, bunu təqdir edirdi. Nazirlərin, Bakı merinin, tanınmış deputatların parodiyasının hazırlandığı bu proqramlar hər zaman hakimiyyətin normal reaksiyası ilə üzləşirdi. İndi isə artıq bu mövzular tamamən tabu elan edilib. Yaxşı, səbəb nədir? Ünvanlı, hətta "qara yumor"u efirdən yığışdırmaq nəyə xidmət edir?

**"Yeni Nəsil" Jurnalistlər Birliyinin sədri Arif Əliyev bildirdi ki, milli telekanallara baxmadığı üçün bu tendensiyanı da müşahidə etməyib. Müsahibimiz əhalinin böyük hissəsi kimi Azərbaycan televiziyasında ancaq xəbər verilişlərini izləyənlərdəndir. Amma A.Əliyev efirdən ünvanlı, tənqidi, yumoristik verilişlərin çıxarılmasını da təsadüfi saymır:** "Proses kimi yeni olsa da, bəlli bir prosesdir. Mən buna "qara yumor" deməzdim, ünvanlı tənqid deyərdim. Ünvanlı tənqiddən çəkinmə bu prosesin mərhələlərindən biridir. İlkin mərhələdə tənqiddən kənarda müəyyən şəxslər qoyulur. Belə bir psixoloji mühit yaradılır ki, son nəticədə həmin əmri verən şəxslərdə bu dairə genişlənir. Bu qaçılmaz elementdir. Əgər prinsip olaraq bir şey bir şəxsə, bir qrupa tətbiq olunursa, sonra da zümrəyə tətbiq olunur. Bu, bir çox sahələrdə tətbiq olunur. Xüsusən də media siyasətində qaçılmaz bir məqamdır".

**A.Əliyev xatırlatdı ki, keçmiş prezident Heydər Əliyev özü belə tədbirlərdə iştirak edir, orda hakimiyyətlə bağlı yer alan tənqidlərə əl çalırdı. Müsahibimizin sözlərinə görə, həmin tənqidlərin real əsası vardı:** "O, sadəcə, fantastika deyildi, hər bir səhnəciyin real əsası var idi. Heydər Əliyev də yumora meyilli insan idi. Amma növbəti mərhələdə bu cür tənqidlərə, informasiyalara qadağa qoyuldu. Amma bu qadağa xərçəng xəstəliyi kimi bir şeydir. Bütün hüceyrələrə qədər yayılır".

**Müsahibimiz hesab edir ki, növbəti mərhələdə, ümumiyyətlə, bütün mənfiliklər və tənqidi materiallar yığışdırılmağa başlanacaq. A.Əliyevin fikrincə, bu, jurnalistika nəzəriyyəsinin təcrübədə tətbiq olunmuş formasıdır:** "Bu prosesin "jurnalist dərimdə" getdiyini müşahidə edirəm. Hətta məndə konkret məlumatlar var ki, müəyyən KİV rəhbərlərinə tənqidi material yaymamaları ilə bağlı göstəriş də verilib".

❑ **Sevinc TELMANQIZI**

# İnsan haqqında ballada...



**Hüseynbala SƏLİMOV**

**İnsanın ən yaxşı keyfiyyətlərindən biri onun xatırlamaq, yada salmaq xüsusiyyətidir. İnanmıram ki, başqa canlılarda da bu qabiliyyət olmuş olsun...**

Hətta olsa belə, insanda bu keyfiyyət daha qabarıqdır...

Bu günlərdə saytların birində bir maraqlı məlumat gözümə dəydi - bu həftə Amerika yazıçısı C.Londonun anadan olmasından düz 140 il keçir. Mənim üçün bu yazıçı xüsusi bir önəm kəsb edir. Düzdür, ədəbiyyat real hadisələrdən həmişə təsirli olur. İnsan yaşa dolduqca bunu daha çox dərk etməyə başlayır və bəlkə də elə buna görə də ədəbiyyata qarşı bir az soyuyur...

Amma bu dünyada böyük ədəbiyyat deyilən bir anlayış da var. O, heç vaxt unudulmur, insan ona qarşı heç vaxt soyumur. Əsl böyük Amerika ədəbiyyatı da bu qəbildəndir...

C.Londonu demək olar ki, mərhələlərlə oxumuşam; uşaqlıqda bir az, gənclikdə bir az və yaşa dolduqdan sonra da bir az... Hər dəfə də o, mənə bir cür, fərqli tərzdə təsir edib. Amma heç vaxt təsirsiz olmayıb...

Onun "Martin İden", "Dəmir pəncə" romanları hələ də yaddaşımdan silinməyib. Mən hələ gözəl hekayələri və onların yaratdığı gözəl təəssüratları demirəm...

Tələbəlik vaxtı onun hekayələr toplusu əlimə keçmişdi. Kitabı götürüb bir tərəfə çəkildim. Onları neçə gün oxudum, artıq bunu xatırlamaq iqtidarında və gücündə deyiləm...

C.Londonun əsas xüsusiyyəti nə idi? Əsərlərindəki sərt realizm! Bəlkə də mənim onu bu cərəyana aid etməyim kimdəsə etiraz yaradacaq - özümü ədəbi janrlarla bağlı elə də məlumatlı hesab etmirəm. Amma mən bu yazıçını başqa koordinat sistemində təsəvvür edə bilmirəm.

Əvvəldə dedim ki, böyük ədəbiyyat real hadisələrdən bir az təsirli olur. Amma gərək "bir az uca" yazaydım.

Həyat özü də heç də az təsirli olmur. Sadəcə, insanların bir çox hallarda həyatdakı hadisələrə dəyər vermək imkanları olmur. Bəlkə də "buna onların vaxtı olmur" demək daha düzgün olardı...

İnsanlar hərəkətlərinin etik dəyəri haqqında hərdən düşünsələr də, onların estetik dəyəri haqda düşünməyə meylli olmurlar. Bir çox hallarda onlar

bunu başqalarının öhdəsinə buraxırlar.

Qayıdaq C.Londona... Hərdən özümüzü az qala onunu hindularının yerində hiss edirəm. Mənə elə gəlir ki, biz də azad idik, varlı idik, çünki təbiət özünü bizim sərəncamımıza vermişdi. Amma bir gün "ağ adamlar" gəldilər və onlar özləri ilə "qanun" gətirdilər...

Bu "qanun" yasaqlardan və qadağalardan ibarət idi. Onlar bizi bu qadağalar və yasaqlar çərçivəsində yaşamağa məcbur etməyə başladılar.

Bəli, bir sözü deyirəm, başqa birisi yadıma düşür. Bir neçə il bundan əvvəlin söhbətidir. Bir yazı haqqında demişdim ki, lap hindu lideri Qara Tərlanın nitqinə bənzəyir. O vaxt bir müxalifət lideri qayıdıb dedi ki, bəlkə elə belə də olmalıdır?..

O vaxt mən ona cavab vermədim. Amma indi baxıb görürəm ki, o, haqlı imiş - azadlığı əlindən alınan bütün mübariz insanlar doğrudan da hindulara bənzəyir. Onlar "ağ adamlar"ın "qanun"u qarşısında, onların yasaqları qarşısında acizdirlər. "Ağ adamlar"ın silahı, pulu - sərvəti var. Hinduların isə bunun qarşısında yalnız əyilməz inadı var.

Onlar "ağ adamlar"a etirazlarını onların yasaqlarını tanımamaqla, öz qaydaları ilə yaşamaqla bildirirlər...

Qərəz, nə başınızı ağrıdım? Bunların hamısı C.Londonun hekayələrində var və həmin hekayələri oxumamaq sadəcə, günahdır... Bilirsiniz, oxumağın çox fəziləti var. Uşaqlıqda eşitmişdim ki, adam bədii ədəbiyyat oxumayanda beyni quruyur. Etiraf edirəm ki, əvvəl bunu lap hərfi mənada başa düşmüşdüm və düşünmüşdüm ki, elə həqiqətdə də belə olur.

Amma yaşa dolduqca bunun məcazi bir fikir olduğunu anladım və dərk etdim ki, insanın beyni quruması da, bədii ədəbiyyat oxumayanda onun hissləri korlaşır və kütləşir.

Bütün ədəbiyyatlar haqqında bir söz demək olar. Onlar bir fikir aşılayır. O da budur ki, sən böyüksən, insan, böyük olduğunu dərk et.

C.Londonda da böyüklük hissi çox qabarıqdır. Onda hər iki tərəfə qarşı bir simpatiya duyulur: o, "ağ adamlar"a qarşı da, onların əleydarlarına - "qırmızı" adamlara qarşı da eyni dərəcədə həssasdır.

O, "Ağlar"ı qətiyyətinə görə, "qırmızı" adamları isə inadına görə sevir... Ən dəhşətlisi isə odur ki, dünyada "ağlar" və "qırmızı"lar bir simbioz təşkil edir və onları ayırmaq heç də həmişə asan olmur.

YENİ MÜSAVAT
N 8 (6329) 13 yanvar 2016



# Göyərti satanın qızı

Zamin HACI
zaminhaci@gmail.com

**"Devalvasiya" sözünə qafiyələrdən biri "revolyusiya"dır. Anlayanlar üçün burda böyük hikmət yatır. Elə mən dünən bir neçə rayonumuzda insanların topa-topa yığışıb icra hakimiyyətlərinin qabağına getməsini, yolları bağlamaq cəhdlərini görəndə bu qafiyəni xatırladım. Aclıq pis şeydir. Dünənə qədər hətta qarnında bülleten seçki saxtakarlığına göndərdiyin müəllimə də bu gün ac qalsa, səni tanımayacaq. Avtoritar rejim saxlayırsansa bunun iki təməlinə, özül qaydasına əməl etməlisən: çörək və tamaşa. Bunun biri olmasa sistem əyilir. Acqarına tamaşa, tamaşasız yemək də keçmir.**

Maraqlıdır ki, ölkəni ərzaqla təmin etməli olan regionlarda etirazlar öncə başladı. Belə çıxır paytaxt daha toxdur, ölən manatın təpiyi paytaxt sakinlərinə *(bu ifadəni ola bilər bir daha eşitməyəsiniz, yadda saxlayın ki, bir zamanlar bizdə "paytaxt sakini" deyə gülməli təqdimat forması vardı)* gec dəyəcəkdir. Bəs regionların inkişafı haqda proqramlar necə oldu? İfşa edilmək budur. "Özümüzü ərzaqla təmin edirik", "2015-ci il kənd təsərrüfatı ilidir" kimi nağıl və əfsanələrin biabırçılığı budur. Biz kənddən çörək gözləyirdik, kənddə aclıq imiş.

Eyni tragikomediya spirtli içki və tütün məmulatlarının kartla satışı haqda qərarın dünən ləğvinə aiddir. Bu absurd qərarın cəmi 12 gün ömrü oldu. Bəyəm bunu anlamaq üçün, dünyanın heç bir yerində olmayan axmaq qərarı cırmaq üçün 12 gün keçməli idi? Elementar misal çəkim: dükan yiyəsi özü kart saxlayıb müştərilərə də spirtli içki və siqaretləri "hədiyyə" edə bilməzdimi? Sən alırsan, pulu nağd verirsən satıcıya, o da öz kartına "yükləyir", malı isə sənə guya müftə verir. Buna kim qadağa qoya bilərdi? Bu əməliyyatın əvvəlki kassa əməliyyatından hansı iqtisadi fərqi var idi?

Əlbəttə, ortalıqda məşhur və burda yazılması mümkün olmayan lətifədəki kimi, "başını dərddən itirmiş" iqtidar varsa hər şey mümkündür. Belə tələm-tələsik, mürəkkəbi qurumadan ləğv edilən qərarları hələ çox görəcəyik. Çünki ölkə iqtisadi qanunlar, liberal bazar qaydaları ilə idarə olunmur. Tam bir avtoritar, monopolist sistemdir, bu isə real iqtisadiyyatın təsirlərinə çevik reaksiya verə bilməz, əksinə, özünü daha çox batırar - bataqlığa düşmüş, köməyi olmayan adamın çapalaması kimi. Neft gəlirləri bu distrofik iqtisadi sistemin dərialtı piy qatı idi, indi bu qat tamam ərimək üzrədir və ətraf aləmin soyuğuna müqavimət göstərəcək bir zad qalmamışdır.

Prosesi "süni qiymət artımı", "işbazların qanunsuz hərəkəti" kimi cəfəngiyyatla ört-basdır eləmək də mümkün deyil. Birincisi, bu hələ devalvasiyanın ilk ləpələridir, neftin qiyməti gündən-günə düşür, bir çox proqnozlara görə yaxın çağlarda 10 dollara qədər enəcək - o sunami dalğasında nə edəcəksiniz? İkincisi, millət axı görür ki, ölkədə məmur-oliqarx dəstəsindən başqa sahibkar, ya da özləri deyən kimi, "işbaz" yoxdur. O zaman kimin qanunsuz hərəkətlərindən söhbət gedir? Ümumiyyətlə, hansı qanunsuz hərəkətdən bəhs olunur? Milli valyuta ölübsə, buna işbaz neyləsin? Vaxtında iş mühiti yaratsaydınız, azad bazar iqtisadiyyatına imkan versəydiniz indi də millət ağzını açıb yuxarıdan - sizdən yemək gözləməzdi. Öz qazdığınız quyuya yıxılmısınız, ağlamağın yeri yoxdur.

Ancaq elə həmin kart qərarının ləğvindəki kimi, başqa tədbirlərin də görülməsi gec deyil. Böhran elə bir prosesdir ki, hər hansı müsbət addımı vaxtında atılmış addım kimi cəmiyyətə sırımaq olur. Təki olsun, sözümüz yox. Təki gömrükdəki monopoliya doğrudan ləğv edilsin. Təki icra başçılarının, nazirlərin pəncəsi insanların belindən yüngülvari də olsa götürülsün. Müsbət nəticəni özünüz görərsiniz. Yoxsa "bir-birini soya-soya böhranı yola verəcəklər" fikirləşirsinizsə, ciddi səhv edirsiniz.

Sumqayıt Dövlət Universitetinin gənc qız tələbəsi intihar edib. Fəhlə atası deyir uşaqdan imtahanda rüşvət istəyiblər, qiymətini kəsiblər. Ən dəhşətlisi həmin bu geydirmə dövlət universitetində illik təhsil haqqı idi: yazıq uşaq bura 1800 manat ödəməliymiş. Axı Sumqayıtda filologiya tədrisi nə matah şeydir ki, dövlət buna görə yetim-yesirdən ildə bu qədər pul alır?

Bax, həmin ölən tələbənin anası göyərti satmaqla ailəni dolandırırmış. İllik təhsil haqqını verirmiş. Tunis yadınıza gəlirmi? Bin Əlinin nömrəsini tapın, sizə məsləhət versin.

# Neft antirekorda doğru - 20 dollar ola bilər

## Bəzi ekspertlər neftin qiymətinin hətta 12-13 dollara qədər ucuzlaşacağını bildirib

**Neftin qiyməti üzüaşağı getməkdədir. Hər gün ucuzlaşan neft barədə proqnozlar da nikbin deyil. Yanvarın 11-də Azərbaycanın Supsa, Batumi və Ceyhan limanları vasitəsilə dünya bazarına çıxararaq satdığı "Azeri LT CIF" markalı xam neftin bir barelinin qiyməti 1,19 dollar, yaxud 3,5 faiz ucuzlaşıb. "Azeri LT CIF" markalı neftin bir barelinin qiyməti 32,81 dollara bərabərdir. Xatırladaq ki, "Azeri LT CIF" kodirovkasının minimal qiyməti 2001-ci ilin dekabrında (19,15 dollar), maksimal qiyməti isə 2008-ci ilin iyulunda (149,66 dollar) qeydə alınıb.**



**Ekspert Fikrət Yusifov** musavat.com-a açıqlamasında qeyd edib ki, əslində ABŞ-ın uzun illər bundan öncə düşündüyü bir proqram reallaşdırılır: "Proqram mərhələlərlə hər kəsin gözü qarşısında reallaşdırıldığından böyük gücün niyyətinin nədən ibarət olduğunu da hər kəs çox aydın şəkildə görə bilir. Daha doğrusu, Amerika Birləşmiş Ştatları neftin qiymətləri ilə bağlı qarşıya qoyduğu məqsədi çox sadə və çox şəffaf bir şəkildə addım-addım reallaşdırır. Bu gün Yaxın Şərqdə neftin bir bareli 4-5 dollara başa gələn iki böyük neft hasilatçısı- Səudiyyə Ərəbistanı və İran ABŞ-ın neft qiymətləri üçün müəyyən etdiyi strategiyanın reallaşdırılmasında başlıca oyunçulardır. Siyasət meydanında dostlar olmur, çünki bu meydanda dostluqdan əvvəl maraqlar dayanır. Rusiya beynəlxalq birliyin təzyiqlərinə baxmayaraq, uzun illər iqtisadi sanksiyalarla üz-üzə qalmış İrana hərtərəfli dəstək verən bəlkə də yeganə ölkələrdən biri olub. Bəs İran bunun qarşılığını necə verdi? Bu gün Rusiya neftin dünya bazarlarında qiymətlərinin aşağı düşməsi səbəbindən iqtisadi sarsıntılar keçirsə də, İran neftin satışına 40 ildən çox qoyulan sanksiyalar götürülən kimi neftin qiymətlərinin 20 dollardan da aşağı düşəcəyi bir şəraitdə onun hasilatını və satışını artıracağını bəyan etdi. Bunu İranın Rusiyaya xəyanəti kimi dəyərləndirmək lazım deyil. Bu, sadəcə olaraq, ölkəsinin iqtisadi maraqlarına yaşıl işıq yandıran gücün atdığı addıma İranın cavabıdır. İranla bağlı bu məsələni bir qədər geniş açmaqla onu demək istəyirik ki, əgər ABŞ Rusiyaya yönəlik addımlarının reallaşdırılması yolunda onilliklər boyu düşmənçilik etdiyi bir tərəflə- İranla "dostliq" etməyə qol qoyursa, deməli, onun bu yoldan geriyə dönüşü gözlənilən deyil. Ali məqsəd neftin qiymətlərini ən azı 20 dollar həddinə qədər aşağı salmaq və bu yolla da Rusiya iqtisadiyyatını çökdürməkdən ibarətdir. Bunun üçün isə ABŞ-n əlində təkcə OPEK-ə de-fakto rəhbərlik edən Səudiyyə Ərəbistanı və neft ixracına "hə" demiş İran kimi oyunçular deyil, ABŞ-ın özündə maya dəyəri 20 dollara qədər ucuzlaşmış şist neft hasilatı var. Ona görə də ABŞ bugünlərdə öz ölkəsindən neftin ixracına 40 il öncə qoyulmuş qadağanı aradan götürdü. Yuxarıda sadalanan bütün bu səbəblərdən yaxın gələcəkdə neftin qiymətlərində azalmadan başqa nə isə gözləmək real görünmür".

**Neft Araşdırmalar Mərkəzinin rəhbəri İlham Şaban isə bildirir ki, artıq dünya təcrübəsi də münaqişələrin neftin qiymətinə təsir edə bilmədiyini göstərir:** "Neftin ucuzlaşmasında katalizator rolunu oynayan bir nömrəli amil dünya iqtisadiyyatı ilə bağlı gələn xəbərlərdir. Çin iqtisadiyyatının neqativ göstəricilərlə bağlı açıqlamaları da təsir edir. Ölkələrin iqtisadi göstəriciləri də qiymətlərə təsir edir. 2015-ci ilin 4-cü rübünün yekunları ilə bağlı ölkələrin yanvarın sonunda verəcəyi açıqlamalar neftin qiymətinə təsir edəcək. Bu açıqlamalardan sonra neftin qiyməti 30 dollardan da aşağı düşə bilər".

**Qeyd edək ki, bir neçə gün əvvəl sabiq maliyyə naziri Saleh Məmmədov neftin qiymətinin 12-13 dollara qədər ucuzlaşacağını bildirib. Onun sözlərinə görə, Azərbaycan bu prosesdən çıxması üçün xeyli gecikib.** "Bu vəziyyət Rusiya ilə Ukrayna münasibətləri korlanandan və Rusiyadakı vəziyyət gərginləşəndən sonra başlayıb. Biz isə hələlik gözləmə mövqeyi tutmuşuq və bəzi tədbirlərlə keçinirik. Belə bir vəziyyətdən çıxmaq Azərbaycan üçün çətin olacaq. Çox ciddi islahat tədbirləri görülməlidir ki, vəziyyətdən daha az zərərlə çıxıb, ölkənin iqtisadi inkişaf tempini inkişaf etdirəsən".

Yanvarın ortalarında 1 barel neftin qiymətinin 30 dollar olacağı vurğulanır. Bu barədə "UBS Group AG" Çin holdinqi olan "Nomura Holdings Inc" xəbər verib. "UBS Group AG"nin məlumatına görə, ABŞ-ın Nyu-York birjasında neftin qiymətləri son 12 ilin ən aşağı həddinə düşüb. Analoji göstərici Çində də qeydə alınıb və Çin bazarı yanvarın 17-dən sonra 1 barel neftin 30 dollara düşəcəyini proqnozlaşdırıb.

Neft 2015-ci ildə böyük itkilərə məruz qalıb. Neft İxrac edən Ölkələr Təşkilatı (OPEC) faktiki olaraq qlobal itkilərin fonunda hasilatı artırmaqdan imtina edib. Enerji İnformasiyaları İdarəsinin *(Energy Information Administration)* məlumatına görə, Oklahoma ştatındakı Kuşinq yataqlarından ABŞ-ın satış məntəqələrinə çatdırılan neftin həcmini bütün ölkə üzrə rekord həddə çatdırıb. Bütün ölkə üzrə ehtiyatlar beş illik ortalama rəqəmlərə əsasən 100 milyon bareldir.

**❑ RÖYA**

# Mehman Əliyevdən aprelədək islahatlar olacağı anonsu

## Obamanın dəvəti iqtidarda arxayınlıq yaradacaq?

**ABŞ prezidenti Barak Obamanın Azərbaycan prezidenti İlham Əliyevi aprel ayında Vaşinqtonda keçiriləcək 4-cü Nüvə Təhlükəsizliyi Sammitinə dəvət etməsi hadisəsinin Azərbaycan hakimiyyətini bir qədər arxayınlaşdıracağı və siyasi məhbus adlandırılan şəxslərlə bağlı müsbət qərar verilməsini tormozlaya biləcəyi barədə iddialar irəli sürülməyə başlayıb.**



Mehman Əliyev

"Turan" informasiya agentliyinin rəhbəri Mehman Əliyev isə bu iddiaların əsaslı olmadığı qənaətindədir. Onun fikrincə, əksinə, Obamanın dəvəti islahatlar məsələsində müsbət rol oynaya bilər: "Amerikanı narahat edən məqamlarla bağlı iş aparılır. Barak Obama ilə birinci görüş Antalyada G-20 sammitində keçirildi. Növbəti görüş isə Vaşinqtonda nəzərdə tutulub. Hər halda, Vaşinqton səfəri reallaşanadək Azərbaycan hakimiyyəti bir sıra addımlar atacaq. Azərbaycan tərəfinin dəvət xəbərini bir ay sonra ictimaiyyətə elan eləməsi göstərir ki, hakimiyyət dəvəti qəbul etmək qərarına gəlib və Vaşinqton səfərinədək iki tərəfi narahat eləyən məsələləri yoluna qoymaq istiqamətində çalışacaq. Ona görə də yaxın zamanlarda operativ iqtisadi idarəetmə sisteminə keçid və başqa islahatların aparılması gözlənilir. Nazirlər Kabinetinin son toplantısında dövlət başçısının çıxışında da bunun anonsu verilmiş oldu. Yaxın zamanlarda Nazirlər Kabinetində və hakimiyyətdə ciddi dəyişikliklər baş verə bilər. Paralel olaraq gözləmək lazımdır ki, siyasi istiqamətdə də addımlar atılacaq. Çünki bu məsələlər bir-biri ilə bağlıdır".

**Meman Əliyevin sözlərinə görə, gözləniləndir ki, ölkə başçısı bir sıra iqtisadi və siyasi islahatlar keçirərək, siyasi məhbuslarla bağlı qərarlar verərək Vaşinqtona gedəcək:** "Siyasi məhbusların azadlığa buraxılması məsələsində müəyyən addımların atılmasının bu yaxınlarda Avropa Birliyinin xarici siyasət komissiyasının rəhbərinin gəlişinə qədər də baş verməsini gözləyirəm".

**❑ E.SEYİDAĞA**

# Rayonlarda etiraz dalğası başlayır?

**Dünən bir neçə rayonda bahalaşma əleyhinə aksiyalar keçirildiyi haqda xəbərlər yayıldı. Həmin xəbərlərdə bildirilirdi ki, manatın dəyərdən düşməsi və bahalaşma prosesi nəticəsində yaranmış narazılıq artıq etirazlara yol açmaqdadır. Bir neçə gün əvvəl Ucar rayonunda, dünən isə Siyəzən, Lənkəran və Füzuli rayonlarında yerli əhalinin etiraz aksiyası keçirdiyi xəbərləri yayılıb. Hazırda Sabirabadda da durumun ağır olduğu deyilir.**



Yayılan xəbərlərdə bildirilir ki, bir neçə rayonda etirazların başlamasına əsas səbəb unun bahalaşması olub. Məlumatlarda vurğulanır ki, əhali artıq dolanışıq üçün pul tapa bilmədiyi üçün çıxış yolunu etiraz etməkdə görür. Saatlıda isə ayın 15-nə mitinq təyin olunduğu bildirilir.

**AXP sədri Pənah Hüseyn** bildirdi ki, konkret hansı rayonlarda etiraz aksiyalarının keçirildiyi barədə onda dəqiq informasiyalar olmasa da ölkədə manatın devalvasiyasından sonra başlayan böyük bahalaşma, işsizlik kütləvi həyəcana səbəb olub. Hökumətin təcili antiböhran tədbirlərinə başlamaması isə insanlarda ümidsizliyi və narazılığı bir qədər də artırıb. Bu narazılığın etiraz aksiyaları formasında üzə çıxması təəccüblü olmamalıdır: "Gözlənilirdi hökumət devalvasiyanın fəsadlarının müəyyən qədər aradan qaldırılması üçün zəruri tədbirlər görəcək. Bu tədbirlər isə ortada yoxdur. Belə vəziyyət həyəcana səbəb olur və insanlar arasında kütləvi hərəkətlənmənin meydana gəlməsini şərtləndirə bilər. Kreditlərlə bağlı yaranmış vəziyyəti də görməməzlikdən gəlmək mümkün deyil. İnsanlar bilmirlər krediti ödəsinlər, yoxsa ailəni dolandırsınlar. Bu durum narazılığı bir qədər də artıran amildir".

**P.Hüseyn vurğuladı ki, hansısa bölgələrdə sadə insanların etiraz aksiyalarının genişlənəcəyi halda hakimiyyət bunu müxalifətlə əlaqələndirməməlidir. Çünki artıq bu kimi məsələ öz əhəmiyyətini itirib:** "Əslində yerlərdə əhalinin etirazlarını müxalifətlə bağlasalar da heç bir əhəmiyyət daşımayacaq. Beş-altı müxalifətçini həbs eləməklə məsələ həll olası, əhalinin güzəranı düzələsi deyil. Müxalifətçilərin həbsi çıxış yolu deyil. Bu addım vəziyyəti bir qədər də kəskinləşdirə bilər. İnanmıram ki, hakimiyyətdəkilər buna getsinlər. Hazırda hökumət müxalifətlə yox, cəmiyyətin problemləri, bu problemlərdən əziyyət çəkən insanlarla üz-üzədir. Əsas məsələ problemin həll edilməsi, yumşaldılmasıdır. Əks təqdirdə, etirazlar qaçılmaz olacaq".

**Deputat Fəzail Ağamalı isə "Yeni Müsavat"a bildirdi ki, o, araşdırma aparıb və adıçəkilən rayonlardan yalnız Siyəzəndə kiçik bir aksiyanın olduğu bəlli olub. Kiçik bir aksiyanın baş verməsini bəzi saytlar və qurumlar şişirdib başqa cür təqdim edirlər:** "Siyəzəndə 25-30 nəfər unun bahalaşması ilə bağlı etiraz edib. Bizim partiyanın yerli təşkilatından dəqiq məlumat aldım ki, bu aksiyanı təşkil eləyən Müsavat Partiyasının Siyəzən rayon təşkilatıdır. İnsanları həmin təşkilat qızışdıraraq meydana gətirməyə çalışıb. Sonra etirazçılarla rayon icra hakimiyyətinin rəhbərliyi görüş keçirib, onlar dinlənilib. Qaldırılan məsələ ilə bağlı tədbir görülməsi üçün onlara vəd verilib. Sonra isə icra hakimiyyətində müşavirə keçirilib, məsələlər müzakirə edilib".



**Pənah Hüseyn:** "Hökumətin təcili antiböhran tədbirlərinə başlamaması narazılığı artırıb"



**Fəzail Ağamalı:** "Xalqın tarıma çəkilmiş əsəblərini dövlətçiliyə qarşı yönəltməkdən şərəfsiz heç nə ola bilməz"

**F.Ağamalı bəyan etdi ki, yaranmış vəziyyətdən, xalqın tarıma çəkilmiş əsəblərini dövlətçilik əleyhinə yönəltməkdən şərəfsiz, ləyaqətsiz heç nə ola bilməz:** "Bu gün dünyada baş verən proseslər hər kəsə aydındır. Dünya od tutub yanır, iqtisadi böhran bütün dünyanı bürüyüb. Azərbaycan təbii ki, bu proseslərdən kənarda qal bilməzdi. Nəzərə alsaq ki, neftin qiyməti artıq 30 dollar səviyyəsinə enib və ola bilsin yenə də enəcək, belə bir vəziyyət öz təsirini iqtisadiyyatımıza göstərməlidir. Çünki iqtisadiyyatımızın ciddi bir hissəsi neft amili ilə bağlıdır. Bu, indiki iqtidarın utanc yeri deyil, çünki nefti dünya bazarına çıxaran və ölkəyə milyardlarla vəsait gətirən indiki iqtidardır. Ancaq neftin qiymətinin müəyyənləşməsi iqtidardan və dövlətimizin iradəsindən asılı məsələ deyil. Tamamilə əminəm ki, bu situasiyadan istifadə edib xalqı dövlətin və iqtidarın əleyhinə qaldırmaq istəyən insanlar antimilli qüvvələrdir. Xalqımız müdrikdir və əminəm ki, dünyada gedən prosesləri dərk edir, hər zaman olduğu kimi yenə də cənab prezidentin siyasətini dəstəkləyir və dəstəkləyəcək. Xalqımız avantürist çağırışlara, çıxışlara mənfi cavab verəcək".

Lənkəranda baş verən etiraz aksiyası ilə bağlı Lənkəran şəhər seçki dairəsindən Milli Məclisin deputatı olan Rüfət Quliyev isə modern.az saytına açıqlamasında deyib ki, bir qrup insan kommunal xidmət haqlarını verə bilmir. İşıq və qaz idarəsinin əməkdaşları mənzillərə qaz və işıq verilişini dayandırıb. Əhali ilə rəsmilər arasında razılıq əldə olunub. Qərara alınıb ki, əmək haqları alınan zaman insanlar borclarını ödəsinlər. Məsələ bununla da bitib.

**Müsavat Partiyasının başqanı Arif Hacılı isə F.Ağamalının ittihamlarına cavab verib. O, "Yeni Müsavat"a deyib ki, baş verən narazılıqlar əhalinin indiki iqtisadi siyasətdən, düşdükləri ağır durumdan irəli gələn hadisələrdir:** "Bu proseslər yəqin ki, bütün ölkədə davam edəcək. Müsavat Partiyasının respublikanın bütün ərazisində yerli strukturları mövcuddur. Azərbaycan xalqının ağır duruma düşdüyü məqamda Müsavata, onun yerli strukturlarına, ayrı-ayrı nüfuzlu müsavatçılara müraciət etməsinə də təbii yanaşmaq lazımdır. Ancaq konkret olaraq son günlərdə keçirilən aksiyaların təşkilatçısı Müsavat Partiyası deyil. Biz bu məsələləri müzakirə edirik. Həm ölkə ərazisində, həm Bakı şəhərində kütləvi aksiyalar keçirmək barədə qərarlar qəbul edərkən qərarlarımızı ictimaiyyətə açıqlayacağıq".



❑ E.SEYİDAĞA



Əsabil Qasımov



Tahir Süleymanov

# Deputatdan iki YAP-çı həmkarına ağır ittiham

**Fəzail Ağamalı:** "Bu deputatlara çağırış edirəm ki, xalqı çörəklə imtahana çəkməyin, xalqı dövlətdən narazı salmayın"

**Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı ölkədə unun qiymətinin süni surətdə bahalaşmasında və əhalinin narazı salınmasında deputat həmkarları Tahir Süleymanovla Əsabil Qasımovu ittiham edib. "Yeni Müsavat"a açıqlamasında F.Ağamalı bildirib ki, insanların narazılığı unun kəskin bahalaşmasınadır. Bunu edən isə un istehsalı ilə məşğul olan adıçəkilən deputatlardır:**

"Mən iki deputat həmkarıma çağırış edirəm. Onlardan biri Siyəzənin deputatı Tahir Süleymanov, biri isə İmişlinin deputatı Əsabil Qasımovdur. Onlar ölkənin əsas un istehsalı ilə məşğul olan adamlardır. Qiymətləri də onlar qaldırıblar. Hər ikisi zəhmət çəksin illərdir bu dövlətin hesabına yığdıqları pulu xərcləsinlər. Süni bahalaşmaya gedib əhalinin vəziyyətini ağırlaşdırmasınlar. Bu deputatlara çağırış edirəm ki, xalqı çörəklə imtahana çəkməyin, xalqı dövlətdən narazı salmayın. Onlar bu dövlətdən qazanıblar, indi qazandıqlarını zəhmət çəkib xalqa xərcləsinlər. Bu durumda da pul qazanmaq həvəsinə düşməsinlər. Bu iki deputat çağırışlara məhəl qoymasalar və xalqı çörəklə imtahana çəkməkdə davam edəcəklərsə, kimliklərindən asılı olmayaraq birbaşa onların üstünə gedəcəm. Onlara bəyan edirəm ki, unun qiymətini qaldırmasınlar. Ölkə prezidenti də çağırış etdi ki, süni qiymət artımına gedilməsin. Prezidentin çağırışına əməl etsinlər. Xalqın və dövlətin maraqları hər şeydən üstündür. Unun, taxılın məşğul olanların üzərində dövlətin müvafiq qurumlarının ciddi nəzarəti olmalıdır. Bu möhtəkirlər, işbazlar yaranmış durumdan istifadə edib varlanmaq istəyirlərsə, əslində dövlətə xəyanət edirlər".

❑ E.SEYİDAĞA



# Arağın kartla satış qərarı ləğv olundu

**Yanvarın 12-dən etibarən ölkədə aksiz malların plastik kartlarla satışı dayandırılıb. "Qafqazinfo" xəbər verir ki, bu barədə Vergilər Nazirliyinin müavini Sahib Ələkbərov AzTV-yə müsahibəsində deyib. O qeyd edib ki, sahibkarların ölkə başçısına çoxsaylı müraciətlərini nəzərə alaraq bu qərar qəbul edilib:**

"Bu gündən (yanvarın 12-dən-red.) etibarən spirtli içkilərin nağd qaydada satılmasında heç bir problem olmayacaq. Baxmayaraq ki, bütün mağazalarda postterminallar quraşdırılıb, ödəmə məntəqələrinin sayı kifayət qədərdir. Amma insanlarımız buna alışmadılar. Bu məsələni geniş təbliğ etməyə ehtiyac var. Həm də sahibkarlar müraciətlərində spirtli içkilərin sənədləşməsi ilə bağlı problemlərin olduğunu qeyd edib. Bu sənədləşmə işlərinin başa çatdırılması üçün sahibkarların müraciətləri nəzərə alınıb. Bu qərar imkan verəcək ki, sahibkarlar sənədləşmə işlərini başa çatdırsın. Eyni zamanda bundan sonra mağazalarda vətəndaşlar həm nağdsız, həm də nağd formada spirtli içkilər ala bilərlər".

# Sabiq rabitə və informasiya texnologiyaları naziri qandallanır




# Əli Abbasova həbsxana yolu göründü - "dövlətə xəyanət"

Prezident İlham Əliyev rabitə nazirini işdən qovduqdan sonra ilk dəfədir ki, RYTN-də baş verənlər haqda danışıb və çox sərt ifadələr işlədib: "Cinayətdir, vicdansızlıqdır, dövlətə xəyanətdir"; Ə.Abbasovun YAP Siyasi Şurasından uzaqlaşdırılması da gündəmə gəlib, müəllim kimi auditoriyaya girməsinə isə universitet rəhbərliyi qadağa qoyub

**Ötən ilin oktyabr ayının 17-də milli təhlükəsizlik naziri Eldar Mahmudovun işdən çıxarılmasından sonra paralel olaraq Rabitə və Yüksək Texnologiyalar Nazirliyində (RYTN) də həbslər həyata keçirildi. Nazirliyin yüksək rütbəli əməkdaşları, o cümlədən aparat rəhbəri Vidadi Zeynalov, Beynəlxalq Əlaqələr və Hesablaşmalar Mərkəzinin direktoru Cəlil Cəfərov, "Bakı Telefon Rabitəsi" İstehsalat Birliyinin baş direktoru Beytulla Hüseynov həbs olundular. Hələ o zaman nazir vəzifəsində işləyən Əli Abbasovun israrla həbs edilənləri müdafiə etməsinə baxmayaraq, tezliklə saxlanılanların çevrəsi daha da genişləndi. İlkin araşdırmalar göstərdi ki, RYTN-də rüşvətxorluq, korrupsiya, dövlət əmlakının mənimsənilməsi geniş vüsət alıbmış.**

Noyabrın 12-də dövlət başçısının sərəncamına əsasən, YAP Siyasi Şurasının üzvü olan Əli Abbasov da vəzifəsindən kənarlaşdırıldı. Bir neçə gün sonra YAP-ın daha bir "ağır top"u, partiyanın Mərkəzi Nəzarət Təftiş Komissiyasının sədri, "Aztelekom" MMC-nin baş direktoru Məmməd Məmmədov barəsində də həbs-qətimkan tədbiri seçildi.

M.Məmmədov Cinayət Məcəlləsinin 179.3.2 (külli miqdarda mənimsəmə), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə ittiham olunur.

Artıq bir neçə aydır ki, Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi, eləcə də Vergilər Nazirliyi RYTN-də yoxlamalar aparır. Aşkarlanmış korrupsiya faktları ilə bağlı Baş Prokurorluqda bir neçə cinayət işi başlanıb.

Prezident İlham Əliyev yanvarın 10-da Nazirlər Kabinetinin toplantısında RYTN-də baş verən korrupsiya faktlarından danışıb. Dövlət başçısı deyib ki, informasiya-kommunikasiya sektorunun inkişafına investisiyalar qoyulub, kreditlər verilib, amma əfsus ki, bəzi hallarda gəlir başqa ciblərə gedir, dövlət xeyir götürmür: **"Arada gəzən şirkətlər burada əsassız qaydada böyük məbləğdə pul qazanırlar, onların fəaliyyəti dayandırılmalıdır. Yəni bütün gəlirlər dövlətə, büdcəyə gəlməlidir və bunun hesabına informasiya-kommunikasiya texnologiyaları sektoru bundan sonra da inkişaf edəcək. Dövlət artıq bu sahəyə kifayət qədər, artıqlaması ilə vəsait ayırıb".**

Prezident nazirlikdəki yoxlamalardan da danışıb: **"Yoxlamalar göstərir ki, bu vəsaitdən vicdansızlıqla istifadə olunub. Burada israfçılıqdan söhbət getmir, burada böyük cinayətdən söhbət gedir. İndi prokurorluq ciddi məşğuldur. Bir malın qiyməti bir neçə dəfə şişirdilir - 3 dəfə, 4 dəfə. Bu, cinayətdir, vicdansızlıqdır, dövlətə xəyanətdir".** İ.Əliyev deyib ki, bu əməlləri törədənlər məsuliyyətə cəlb olunurlar və bu, bütün qurumlara dərs olmalıdır.

Prezident Əli Abbasovu işdən qovduqdan sonra ilk dəfədir ki, RYTN-də baş verənlər haqda danışıb və çox sərt ifadələr işlədib. Bu, artıq həm də başqılanılması üçün YAP-ın çətirindən istifadə edən Ə.Abbasova həbsxana yolunun görünməsi deməkdir. Çünki prezidentin "dövlətə xəyanət" hesab etdiyi yeyinti və korrupsiya faktları 11 il nazir işləmiş Ə.Abbasovun nəzarətindən kənar baş verə bilməzdi. Bu həm də o anlama gəlir ki, həbslər hələ davam edəcək.

"Yeni Müsavat" bir müddət əvvəl Əli Abbasovun ev dustağı edildiyi və Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin müstəntiqləri tərəfindən bir neçə dəfə dindirilməsi ilə bağlı məlumat yaymışdı. Məlumatlara görə, bütün iri mənimsəmə faktlarında sabiq nazirin imzası və ya razılığı var ki, bu da istintaqa məlumdur.

Xəbərlərə görə, prezidentin qəti mövqeyindən dərhal sonra Ə.Abbasovun Siyasi Şura üzvlüyündən uzaqlaşdırılması da gündəmə gəlib. Onun kafedra müdiri olduğu İqtisad Universitetindən "öz xahişi ilə" uzaqlaşdırıldığı da gələn xəbərlər sırasındadır. Bildirilir ki, əslində reputasiyası ləkələnmiş sabiq nazirin müəllim kimi auditoriyaya girməsinə universitet rəhbərliyi qadağa qoyub, bundan sonra isə Ə.Abbasov ərizəsini yazıb.

Məlumatı dəqiqləşdirmək üçün İqtisad Universiteti ilə əlaqə saxlasaq da, sorğumuza ən müxtəlif bəhanələrlə cavab verən olmadı. "Bəs Əli müəllimlə danışa bilərikmi" sualına isə "burada yoxdur" cavabı verildi. Xatırladaq ki, bir müddət əvvəl YAP icra katibinin müavini Siyavuş Novruzov mediaya açıqlamasında işdən uzaqlaşdırılan sabiq nazirlər haqqında danışmışdı. O demişdi ki, Əli Abbasovun taleyi istintaqdan asılıdır və həbs edilib-edilməyəcəyi araşdırmaların nəticələrindən asılıdır. Prezidentin qəti və çox sərt mövqeyi isə artıq çox şeyi deyir...

❑ **"Yeni Müsavat"**

# Nazirin manatın "batması" açıqlaması narazılıqla qarşılandı

## **Samir Əliyev:** "Kəskin devalvasiya maliyyə nazirinin fikri idi, çünki onu büdcənin icrası maraqlandırır"

**Maliyyə naziri Samir Şərifov yanvarın 10-da Nazirlər Kabinetinin 2015-ci ilin yekunlarına həsr olunan iclasında manatın birdən-birə 50 faizə qədər devalvasiyaya getməsinin səbəblərini açıqlayıb. Nazir bildirib ki, dünya bazarlarında xam neftin qiymətinin kəskin azalması nəticəsində xarici valyutada daxilolmaların azalması ölkəmizin tədiyyə balansında keyfiyyətcə yeni vəziyyət yaradıb və manatın məzənnəsinin əhəmiyyətli dərəcədə enməsini qaçılmaz edib.**



Nazirin sözlərinə görə, qlobal iqtisadi proseslərin ölkəmizə mənfi təsirləri ilə əlaqədar hökumətin və Mərkəzi Bankın atdığı kəsərli addımlar yaranmış makroiqtisadi duruma adekvatdır. O qeyd edib ki, bunu digər neft istehsalı və ixracı ilə məşğul olan ölkələrin timsalında da görmək olar.

**İqtisadçı ekspert Samir Əliyev** "Yeni Müsavat"a maliyyə nazirinin açıqlamasını dəyərləndirib. İqtisadçı nazirin bir çox fikirləri ilə razılaşmadığını qeyd edib: "Azərbaycan ixracının 90 faizdən çoxu neftdən asılıdır. Ona görə də ölkəyə dollarlar bir qayda olaraq, neftdən gəlir. İndi neftin qiymətinin 3 dəfə düşməsi ölkəyə daxil olan dolların həcminin də 3 dəfə azalmasına gətirib çıxardı. Eyni zamanda biz tədiyyə balansına baxsaq, görərik ki, turizm xidmətləri üzrə də kəsir var. Azərbaycan vətəndaşları xarici ölkələrə daha çox gedir. Azərbaycana gələn turistlər isə bundan daha azdır. Turizmin inkişaf etməməsi də ölkəyə dolların gəlməsində problem yaradır. Yəni bu artıq ilin əvvəlində tədiyyə balansında göründü. Biz də ilin əvvəlində bu barədə qeyd edirdik ki, tədiyyə balansında kiçik bir müsbət saldo mövcuddur. İlin sonuna kimi bu qalığı saxlamaq mümkün olmayacaq. Bu müsbət saldonun səbəbi o idi ki, ixrac idxaldan çox idi. Nəzərə alsaq ki, idxal bizdə tam rəsmiləşdirilmir, deməli, reallıqda əslində bu mənfi saldo idi. Həm maliyyə naziri, həm Mərkəzi Bankın rəhbəri açıqlamışdılar ki, neft 40 dollardan aşağı düşərsə, mənfi saldo yarada bilər. Bu baxımdan manatın devalvasiyası qaçılmaz idi, biz də bu barədə ilin əvvəlindən proqnozlar verirdik. Mən düşünürəm ki, bu məsələdə hökumətin metodu uğurlu olmadı".

**İqtisadçı ekspert nazirin hökumətin və Mərkəzi Bankın atdığı addımların makroiqtisadi duruma adekvat olması fikri ilə razılaşmadığını bildirdi:** "Samir Şərifov yəqin ki, Rusiya və Qazaxıstanı nəzərdə tutur. Hər iki ölkənin valyutaları üzən məzənnəyə keçdi. Yəqin ki, həmin ölkələri nəzərdə tutub. Lakin mən misal çəkə bilərəm ki, Səudiyyə Ərəbistanı da neft ölkəsidir, ancaq onlarda milli valyuta ucuzlaşmadı. Küveyt də devalvasiya getmədi. Bu fikrə əks arqument qoymaq mümkündür. Bu fikir tam qəbul olunmur. Ancaq nazir burada Rusiya və Qazaxıstanı nəzərdə tutur. Xüsusilə Qazaxıstan iqtisadiyyatı ilə Azərbaycan iqtisadiyyatı vaxtilə eyni olub və indi də oxşarlıq çoxdur. Bu gün isə situasiya fərqlidir. Yəni neftdən asılılıq Azərbaycanda daha çoxdur, nəinki Rusiya və Qazaxıstanda. Bunun nəticəsidir ki, Rusiya və Qazaxıstan valyutasının üzən məzənnəyə keçidi o qədər də ağrılı deyil. Bu ölkələrdə valyutanın ucuzlaşması ixracata dəstək verir, Azərbaycanda isə bu dəstək görünmür. Fevralda bizdə devalvasiya oldu, lakin bundan sonra qeyri-neft sektorundan ixracat artdımı? İkinci devalvasiya isə dekabrda oldu. Lakin fevraldan dekabra qədər ixracda artım olmadı. İndi də devalvasiyanın ixraca elə bir xeyri olmayacaq. Çünki ixracat təkcə məzənnə ilə düzəlmir, islahatlar zəruridir. Mən düşünürəm ki, Azərbaycan kəskin devalvasiyaya getməklə çox böyük səhv elədi. 50 faizə qədər devalvasiyanın olması Maliyyə Nazirliyinin təşəbbüsü idi. Çünki maliyyə nazirini büdcənin icrası maraqlandırır. Ona görə də maliyyə naziri Samir Şərifovun təşəbbüsü ilə birdən-birə kəskin devalvasiyaya gedildi. Əgər fevral devalvasiyasından sonra tədricən yumşaq devalvasiya getsəydi, o zaman iqtisadiyyat da bu devalvasiyaya adaptasiya olunardı, qiymət artımları da indiki kimi birdən-birə olmazdı. İnsanların əmək haqları ona uyğunlaşdırılardı. İndi kəskin devalvasiya edildi və bu proses tədricən gedir. Bunun bank sektoruna da neqativ təsirləri çox olacaq. Biz bundan sonra da bu neqativ təsirləri görəcəyik".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 8 (6329) 13 yanvar 2016

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

# İlin ilk Qarabağ müzakirələri Londonda başladı

## Vasitəçilərin ikili standartının girovuna çevrilən danışıqlar - Qərb Azərbaycan torpaqlarında Ermənistan vətəndaşlarının hərbi xidmət keçməsinə hələ də normal baxır...

**Yanvarın 9-da daha bir erməni işğalçı əsgəri Azərbaycanın işğal altındakı Dağlıq Qarabağda şərəfsiz ölümə tuş gəldi - alnından snayper gülləsi ilə vurulan Aramis Voskanyan da digər əksər işğalçılar kimi Ermənistan vətəndaşı idi. Bu fakt qonşu ölkənin ölkəmizə qarşı işğalçılıq siyasəti apardığını bir daha təsdiqləyir.**

Elə ən maraqlısı da bu kimi hallara ATƏT-in Minsk Qrupu həmsədrlərinin illərdir susqunluq göstərməsi, daima təcavüzə məruz qalan tərəflə - Azərbaycanla təcavüzkar Ermənistanı bərabər tutmasıdır, işğalçını öz adı ilə çağırmaqdan çəkinməsidir. Rusiyanın mövqeyi haradasa anlaşılandır: şimal qonşumuz ərazilərimizin zəbt olunmasında əsas rol oynamış dövlətdir, işğalçı ölkənin hərbi-siyasi müttəfiqi, Ermənistan isə onun regiondakı yeganə forpostudur və bu üzdən ondan heç vaxt neytral vasitəçi çıxmaz.

Bəs "ədalətli Qərb"i Minsk Qrupunda təmsil edən ABŞ, Fransa necə olsun? Onlar niyə Rusiya ilə eyni mövqe sərgiləyir? Rusiyadan öz hərbi qüvvələrini Donbasdan çıxarmağı tələb edən ABŞ, Avropa Rusiyanın yanında yer almaqla, Krımın işğalına haqq qazandırmaqla, Ukraynanın ərazi bütövlüyü əleyhinə səs vermiş 11 izqoy ölkədən biri olmaqla.

Beləcə, Minsk Qrupu həmsədrləri beynəlxalq hüquqa Rusiya kimi meydan oxuyan bir işğalçı ölkəni illərdir gizli şəkildə himayə edir. Abxaziya, Cənubi Osetiya, Krım, Donbas separatçılarına qarşı tərəddüdsüz sanksiyalar və embarqolar tətbiq edildiyi halda, Qarabağın separatçı liderlərinə Qərbin həvəslə qucaq açmasının, onları hətta Avropaya, ABŞ-a dəvət edib rəsmi görüşlər keçirməsinin başqa hansı adı ola bilər ki?

***

Bu fonda həmsədrlərin vaxtaşırı bu və ya başqa Avropa şəhərində, Azərbaycan və Ermənistanda bir araya gələrək Qarabağa dair müzakirələr aparmasının, yaxud prezidentlərin görüşünü təşkil eləməsinin heç bir önəmi qalmır. Yeri gəlmişkən, bu arada məlum olub ki, Minsk Qrupu həmsədrləri bu il üçün ilk dəfə olaraq münaqişənin tənzimlənməsi yönündə Londonda məsləhətləşmələr aparacaqlar. Bu barədə Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlik özünün twitter səhifəsində yazıb. "Britaniya Xarici Əlaqələr Ofisi ilə məsləhətləşmələr aparmaq üçün Londona yola düşmüşük", - deyə o qeyd edib.

Xatırladaq ki, az öncə amerikalı diplomat Azərbaycan və Ermənistan prezidentlərinin növbəti görüşünün təşkili üçün səylər göstərəcəklərini bildirmiş, həmçinin ABŞ Konqresinin Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsinin sədri Ed Roysla Qarabağ müzakirələri aparmışdı.

Hər şeydən göründüyü kimi, amerikalı həmsədr ötən il olduğu kimi, bu il də rusiyalı və fransız həmkarlarından fəal görünür. Belə fəallığın, nəhayət, bu il real nəticələr verib-verməyəcəyini söyləmək çətindir. Bir şeyi dəqiqliklə qeyd eləmək olar ki, vasitəçi ölkələrin konfliktə ikili standartlı yanaşmasından mənbə götürən danışıqlar ta o vaxtadək səmərəsiz olacaq ki, ənənəvi ikili standart yanaşması kardinal şəkildə dəyişəcək - beynəlxalq hüququn xeyrinə təbii ki...




nədən Dağlıq Qarabağdakı işğalçı qüvvələri illərdir görmür, Ermənistan vətəndaşlarının hərbi xidməti Dağlıq Qarabağda, Azərbaycanın işğal altındakı digər ərazilərində keçməsini, burada öldürülməsini görməzlikdən gəlir? Axı hətta Ermənistanın özü də qondarma "DQR"in "müstəqilliyini" tanımayıb.

Yenə ortaya suallar çıxır: Minsk Qrupunun həmsədr ölkələri gerçəkdən də ölkəmizin ərazi bütövlüyünü tanıyırsa, o zaman Ermənistan vətəndaşlarının Ermənistandan kənar yad torpaqlarda və beynəlxalq hüquqa zidd olaraq hərbi xidmət keçməsinə nədən normal baxır?

Yaxud təmas xəttindəki eskalasiya, erməni vertolyotunun vurulması barədə dərhal bəyanatlar verən vasitəçilər niyə Azərbaycan ərazisində Ermənistan hərbçilərinin xidmət keçməsinə *(İrəvan bunu gizlətmir də!)* və haqlı olaraq öldürülməsinə reaksiya vermirlər? Kimdən çəkinir onlar hər şeyi öz adı ilə çağırmamaqla? Nəhayət, separatçılığa və terrorçuluğa kömək edən Ermənistana öz yerini göstərmək zamanı çatmadımı? Ermənistan hərbçiləri hansı əsasla Azərbaycanın beynəlxalq hüquqla tanınmış qanuni ərazilərindədir?

***

Aydındır ki, qoyulan suallara ABŞ və Fransadan olan həmsədrlər obyektiv cavab vermək gücündə deyillər.



Çünki Ermənistanı işğalçı adlandırmaq istəmirlər, halbuki Gürcüstana *(Abxaziya, Cənubi Osetiya)* və Ukraynaya *(Donbas, Krım)* münasibətdə Qərb diametral əks mövqe sərgiləyir, Rusiyanı işğalçı adlandırır, hətta işğalçı ölkəyə - Rusiyaya qarşı sanksiyalar tətbiq edir. Belə olan təqdirdə əlbəttə ki, Azərbaycana yalnız özünə, öz ordusuna güvənməkdən, hərbi qüdrətini artırmaqdan savayı yol qalmır.

**"Azərbaycanın hərbi potensialı 2015-ci ildə böyük dərəcədə möhkəmlənib. Biz bunu döyüş meydanında da görürük. 2015-ci ildə təmas xəttində Azərbaycan tam üstünlük təmin edib və öz iradəsini diktə edib". Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında deyib.**

**Ötən il onlarla işğalçının məhv edildiyini vurğulayan Azərbaycan prezidenti deyib:** "Ermənistan rəhbərliyi panikadadır, isterikadadır, xarici qüvvələrə müraciət edir ki, onları müdafiə etsinlər. Ancaq sual olunur: erməni əsgərləri hansı torpaqda həlak olurlar? Azərbaycan torpağında həlak olurlar. Getsinlər, çəkilsinlər bizim torpaqlarımızdan, bu zaman münaqişəyə son qoyular, heç kim həlak olmaz və sülh bərpa edilə bilər".

***

Münaqişənin ən sadə həll yolu zatən - bu: Ermənistanı beynəlxalq hüquq normalarına riayət eləməyə vadar etmək. Üstəlik, bunu BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsinə dair qəbul elədiyi 4 məlum qətnaməsi tələb edirsə, hansı problem ola bilər?

Ermənistanın isə həm bu qətnamələrə, həm də, ümumiyyətlə, beynəlxalq hüquq normalarına münasibəti çoxdan bəllidir. İrəvan bu mövqeyi son olaraq 2014-cü ildə - BMT Baş Məclisində Krım məsələsi ilə bağlı Ukraynaya dair keçirilən səsvermədə qabarıq şəkildə nümayiş etdirib -



# Almaniya dövlət radiosunun səsi Şuşadan gəldi

**Almaniya milli radiosu "Deutschlandfunk" Azərbaycanın işğal altındakı ərazilərindən reportaj yayıb (virtualaz.org). Radionun saytında yerləşdirilmiş reportajdan məlum olur ki, "Deutschlandfunk"un əməkdaşı Sven Töniges qondarma "DQR"in Berlindəki "turizm ofisinin" təbliğatı əsasında Azərbaycanın işğal altındakı ərazilərinə ezam edilib. Onunla birlikdə bir qrup almaniyalı turist də Qarabağa gəlib.**

Reportajda deyilir ki, alman jurnalisti "Qafqazın İsveçrəsi olan Dağlıq Qarabağa" səfər etməyə separatçıların nümayəndəsi Berlində keçirilən turizm sərgisi zamanı dəvət edib. Radionun aparıcısı bildirir ki, o, razılıq verəndən sonra bir neçə həftə ərzində "DQR vizası" əldə edib.

Alman aparıcı İrəvan üzərindən Azərbaycanın işğal altındakı ərazilərinə daxil olub, Şuşadakı hotellərdən birində yeyib-içən erməni veteranlarının məclisini təsvir edib. Eyni zamanda reportajda qeyd olunur ki, Dağlıq Qarabağın "müstəqilliyini" heç kim, hətta Ermənistan tanımayıb. Qondarma "respublikanın" turizm "naziri" Sergey Şahverdiyanla görüşünü təsvir edən alman aparıcı bildirir ki, Dağlıq Qarabağın inkişafı turizmdən keçir. Alman turistləri Ağdam yaxınlığında ermənilərin apardıqları və "qədim Tiqranakert şəhərinin qalıqlarının tapıldığı" yerləri də gəzdiriblər. Ancaq onları yer üzündən silinmiş Ağdam şəhərinə daxil olmağa qoymayıblar. Onları müşayiət edən separatçılar deyib ki, Ağdam şəhərinin ərazisi hərbi zona olduğu üçün ora daxil olmaq qadağandır. Bununla belə, reportajda qeyd olunur ki, Ağdam ermənilərin dağıtdığı Azərbaycan şəhəridir.

"Deutschlandfunk" Almaniyanın milli radioyayım şirkəti "Deutschlandradio"nun ictimai-siyasi və mədəniyyət mövzularına həsr olunmuş proqramıdır. Yeni dövlətə məxsusdur. Vaxtilə Hitler Almaniyasının əsas təbliğat ruporu olan "Deutschlandsender" radiosunun əsasında və tezliyində yaradılıb. Almaniya ATƏT-in Minsk Qrupunun üzvüdür, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair beynəlxalq vasitəçilik missiyasına görə məsuliyyət daşıyır. Bu baxımdan alman milli radiosunun Bakının icazəsi olmadan işğal altındakı Azərbaycan ərazilərindən əsasən erməni təbliğatına xidmət edən reportaj yayımlaması qəbuledilməzdir. Yəqin ki, Azərbaycan XİN bu məsələyə reaksiya verəcək.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 8 (6329) 13 yanvar 2016



# Eldar Sabiroğlunun vətənpərvərliyi

Elşad PAŞASOY
epashasoy@yahoo.com

**2013-cü ilin 12 yanvarda Bakıda keçirilən "Əsgər ölümlərinə son" aksiyaları yadınızdadırmı? O vaxt bir qrup gənc ordudakı yaşıdlarının qeyri-döyüş şəraitində həlak olmasına etiraz etdi. Məhz bu etirazların nəticəsiydi ki, sonradan orduda ciddi islahatlar həyata keçirildi, qeyri-döyüş itkiləri kəskin azaldı.**

Lakin o zaman Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi postunu tutan, bu gün isə mediaya, hətta cəmiyyətə cəsarət dərsi keçməyə çalışan Eldar Sabiroğlu etirazçıları "anaların göz yaşından istifadə etməkdə" günahlandırdı, "bu, vicdanlı bir hərəkət deyil" dedi. Bu gün onun misralarından "qan daman", hakimiyyətin aparıcı fiqurlarından birinə qarşı olduqca kəskin yazılarını oxuyanda üç il əvvəli xatırlamamaq olmur.

Onun qəzetlərə ünvanlı ittihamlarını da unutmamışıq. Birini xatırlayaq: "Bəzi kütləvi informasiya vasitələri düşmən dəyirmanına su tökməkdən çəkinmir, dəqiqləşdirilməmiş məlumatları xəbərsiz yaymaqla özlərinin reytinqini yüksəltmək, ictimaiyyətdə çaşqınlıq yaratmaq istəyir, Azərbaycan Ordusunun imicinə kiçik zərbəciklər endirməyə başlayır".

Bir gün redaksiya telefonunu qaldırdım, Eldar Sabiroğlu telefonun o tərəfindən od püskürürdü. Ordu ilə bağlı yazıya görə baş redaktorumuza zəng edibmiş, özü də "bizim mövqeyimizi yazın" təklifi ilə yox, "axı, niyə yazmısınız" tələbi ilə. Baş yazardan cavabını almışdı, ikinci dəfə redaksiyanı yığmışdı, asıb-kəsirdi.

İllər idi əlaqəmiz kəsilmişdi. Yalnız bu yaxınlarda telefon danışığımız oldu, onda da bizi ittiham etdi, hakimiyyətə qarşı "sərt yaza bimədiyimizə" görə...Absurda baxın! 27 illik tarixi olan, keşməkeşlərdən keçən qəzetə nəyi, necə yazmağı öyrədir.

Bizim redaksiyada daha heç kəsin şübhəsi yoxdur ki, nazir Səfər Əbiyevi mətbuata kükrədənlərdən biri elə Eldar Sabiroğlu imiş. Mətbuat işinə cavabdeh kimi, yəqin ki, hər gün nazirlə görüşərək "qara siyahı"ya saldığı qəzetlərin xülasəsini təqdim edib. Hansı ki, o, bu gün nicat gözlədiyi mətbuatla vaxtında normal işləsəydi, Səfər Əbiyev mətbuatın qənimi statusunu qazanmazdı. Təkcə bir ildə "Yeni Müsavat"ı 7 ordu generalı məhkəməyə vermişdi!

Bugünlərdə Sabiroğlunun sələfi Ramiz Duyğun mətbuatla döyüşündən şəstlə danışmışdı. ""Yeni Müsavat" qəzetini o zamankı məzənnə ilə 4 milyon manat, müxbiri Mahir Məmmədlini isə 500 min manat cərimə etdilər. 4 milyon yarım manatı Silahlı Qüvvələrə Yardım Fonduna köçürdüm. Qəbzi də arxivimdə qalır". İndi Sabiroğlunun məhkəmə iddialarından xəbərsiz olduğunu iddia etməsi absurd olardı.

Təsəvvür edin, ömrü boyu bu hakimiyyətə xidmət edib, hətta mülki həyatdan orduya transferdən sonra yüksək rütbə alıb, bu illərdə "Yeni Müsavat" daxil, tənqidçi medianın üstünə kükrəyib, ancaq indi bizi mübariz olmamaqda...suçlayır.

Adam bəzən düşünür ki, bəlkə o, haqlıdır. Lakin birdən onun oğlu Rüfət Sultanovun "YAP-ın mənə verdiyi çörəyi özümə haram bilirəm" sözləri yada düşür. Məntiqlə Eldar Sabiroğlu heç olmasa bundan sonra hakim partiyadan getməliydi. Yoxsa nədən "oğlum, səndən belə bir zərbə alacağımı heç ağlıma gətirməzdim" deməliydi? Özü deməşkən, oğlu ilə yolların ayırırsa, demək, nəsə təmənnası var..."İki ildir işsizəm. Bəziləri bir-iki ay işləməsəydi, səsləri hansı cəbhədən gələcəkdi, onu bir Allah bilir"-bunu da o deyib. Cəmi iki il işsiz qalandan, deputatlıq iddiası gerçəkləşməyəndən, müstəntiq oğluna yüksək vəzifə verilməyəndən sonra...olub "ilin mübariz, vətənpərvər adamı", ölkənin dərd-sərinə etiraz püskürən mücahid...

Müharibə aparan ölkədə bu gün hərbi ekspert tapmaq müşkülə dönüb. Bir neçəsi təzyiqlərə dözmədi, mühacirətə getdi, bəzilərinin də gərginlikdən ömrü yarıda qırıldı. O ekspertlər xalqın və ya ordunun düşməni deyildi, istəyirdilər daha güclü olaq, torpaqlarımızı azad edək. Bir çoxları Qarabağ uğrunda döyüşmüşdü. Mətbuat xidmətində hazırlanan məhkəmə "torbaları" onları sıradan çıxartdı.

Bir faktı da xatırladım. Hörmətli Eldar Sabiroğlu mətbuat xidmətində işləyən mayor İlqar Verdiyevi yaxşı xatırlayır yəqin. Üç il əvvəl cəbhədə döyüş yoldaşını xilas edərkən minaya düşüb şəhid oldu. Ancaq İlqar bəyin doğmalarının gözü yolda qaldı, heç olmasa keçmiş iş yoldaşı kimi Eldar Sabiroğlu onun yasına getmədi. Kimlərinsə zavalına gəldi, rütbəsi aşağı salındı, özü ön cəbhəyə göndərildi və 3 uşağı başsız qaldı. Hansı ki, 14 yaşından hərbidə olan, Türkiyədə ilk hərbi təhsil almış İlqar Verdiyev gerçək vətənpərvərlərdən idi...

# Müxalifət ölkəni böhrandan çıxarmaq üçün nə düşünür?

## Mirmahmud Mirəlioğlu: "Hakimiyyətin özünün vəziyyəti o qədər böhranlıdır ki, onlar kimisə dinləmək imkanında deyillər"

## Sərdar Cəlaloğlu: "Müxalifətin yalnız öz tərəfdarları ilə hansısa bir aksiya təşkil etməsinin heç bir mənası yoxdur"

**Son illərdə ictimai-siyasi, sosial-iqtisadi vəziyyətlə bağlı müxalifət partiyalarının xalqa yalnız virtual müraciətlər etməsi, hökumətə də saytlar, sosial şəbəkələr üzərindən təkliflər verməsi ənənəvi hal alıb. Elə manatın devalvasiyası fonunda da eyni prosesin şahidi olduq. Müxalifət antiböhran proqramları hazırlayaraq, media vasitəsilə iqtidara təkliflər verdi. İqtidar nümayəndələri isə mətbuata açıqlamalarında bildirdilər ki, hökumətin özünün hər vəziyyətə uyğun planı var. Müxalifətin antiböhran proqramlarına isə ehtiyac yoxdur.**

Bəs hazırkı durumda müxalifət nə düşünür? Onlar hansısa digər addımlar atacaqlarmı?

Məsələ ilə bağlı musavat.com-a danışan **Klassik Xalq Cəbhəsi Partiyasının sədri Mirmahmud Mirəlioğlu** bildirib ki, ilk olaraq müxalifət hazırkı formada təkliflər irəli sürməlidir: "Azərbaycan hakimiyyətinin özünün vəziyyəti o qədər böhranlıdır ki, onlar kimisə dinləmək imkanında deyillər. Buna görə də parlamentdə olan sözçüləri vasitəsilə müxalifətin təkliflərinə cavab verirlər. Yaxud da parlamentdəki sözçülər elə hesab edirlər ki, bu kimi təkliflərə onlar cavab verməlidirlər. Hesab edirəm ki, biz istəyib-istəməsək də, iştirak edib- etməsək də ölkədə aksiyalar olacaq. Çünki bu iqtisadi böhranın sonu sosial partlayış, onun da sonu siyasi böhrandır. Hakimiyyət bunun fərqində olmalıdır".

**ADP sədri Sərdar Cəlaloğlu isə bildirib ki, müxalifətin qəbul etdiyi hər bir qərar siyasi reallığın tələblərinə uyğun olmalıdır:** "Əgər bu gün cəmiyyət küçələrdə mitinq təşkil etməyi istəmirsə, müxalifətin yalnız öz tərəfdarları ilə hansısa bir aksiya təşkil etməsinin heç bir mənası yoxdur. İkincisi də biz yalnız hökumətə təkliflər hazırlayıb verməklə məşğul deyilik. Aydın şəkildə görürük ki, ciddi radikal addımlar atılmasa, Azərbaycan məhv olacaq. Ona görə biz məcburuq ki, ən azı media vasitəsilə öz fikrimizi bildirək. Bizdən də öncə Amerika, eləcə də Avropa



Mirmahmud Mirəlioğlu



Sərdar Cəlaloğlu

Birliyi Azərbaycan hökumətinə qarşıdan gələn dərin böhrandan qurtulmaq üçün təkliflər vermişdi. Biz də eynilə təklif edirik. Yəni hakimiyyətin fəaliyyətinə təsir etməyin iki-üç yolu var. Onun biri xalqın iştirakı ilə təsirdir ki, indiki halda xalq bunu istərsə bizsiz də özü küçələrə çıxacaq. Həmçinin digər vəzifəmiz müxtəlif ideyalar verib, iqtidarı doğru yola istiqamətləndirməkdir. Böhran təzə başladığı üçün xalq hələ ki sosial şokun birinci mərhələsindədir. Bu mərhələ susqunluqla xarakterizə olunur. Bu baxımdan susqun vəziyyətdə olan xalqı istəsən də meydana çıxara bilmərsən. Hazırda küçələrə çıxmaq üçün sosial sifariş yoxdur".

**Müsavat Partiyasının başqan müavini Elman Fəttah isə mövzu ilə bağlı aşağıdakıları bildirib:** "Müsavat Partiyası böhrandan çıxış yollarına dair paketini ictimaiyyətə təqdim edib. Orda göstərmişik ki, bu hökumət ölkəni indiki ağır vəziyyətdən çıxarmağa qadir deyil. Bu bizim xalqa mesajımızdır ki, artıq hakimiyyət dəyişikliyi təxirəsalınmaz zərurətə çevrilib".

**Ümid Partiyasının sədr müavini Ənvər Ağazadə isə hesab edir ki, müxalifətin işi həm də proqramlar hazırlamaq, hakimiyyətə təkliflər verməkdir:** "Sözsüz ki, müxalifət həm də paralel olaraq xalqla da işləməlidir. Öz sıralarını genişləndirməlidir. Hazırda ölkəmizdə çox böyük sosial-iqtisadi böhran özünü göstərir. Burada təkliflər də səsləndirilməlidir. Xalq görməlidir ki, ölkəni böhrandan çıxarmaq üçün müxalifətin hansı təklifləri var və hakimiyyətdən fərqli olaraq necə düşünür. Ona görə də bu baxımdan proqramlar və təkliflərlə çıxış etmək önəmli haldır. İndiki şəraitdə aksiyaların keçirilməsini məqbul hesab etmirəm".

❑ Əli RAİS

# Abutalıbov tanınmış vəkili hüzr mərasimindən çıxardıb

## Aslan İsmayılov: "Zəlimxan Yaqubun yas mərasimindən çıxarılmağıma göstərişin Hacıbala tərəfindən verildiyini dedilər"



Aslan İsmayılov

**Tanınmış vəkil Aslan İsmayılov bugünlərdə dünyasını dəyişmiş həmyerlisi, xalq şairi Zəlimxan Yaqubun yas mərasimində başına gələnlərlə bağlı status paylaşıb. Vəkil statusunda Bakı meri Hacıbala Abutalıbov haqda sərt ifadələr işlədib. Statusdan bəzi hissələri təqdim edirik.**

"1989-cu il Azərbaycana gəldiyim ilk günlərdən tanıdığım, hər hücuma məruz qalanda müdafiəsinə qalxdığım və buna görə də dəfələrlə təhqir olunduğum, ən çətin məqamlarda mənimlə görüşüb problemlərini bölüşən, xalq yaradıcılığının insanlara çatdırılmasında əvəzsiz rolu olan, təpədən dırnağa azərbaycanlı, dostum Zəlimxan Yaqubu son mənzilə yola salmaq üçün "Təzəpir" məscidinə getdim. Yaxınlaşdıqda məscidə girişin qadağan olunduğunu bildirdilər. Dostlara zəng edib maraqlandıqda Prezidentin mühafizə xidmətindən yaxınlaşıb keçməyimə icazə verdilər. Məscidə girişdə və ikinci mərtəbədə eyni qaydada salamlaşıb keçməyimə şərait yaratdılar. Düzü, mərasim zalına keçəndə oradakı mənzərə məni təəccübləndirdi, çünki heç vaxt orada elə düzən olmamışdı. Anladım ki, prezident gələcək. Dostlarla salamlaşıb əyləşdim. Bir neçə dəqiqədən sonra mənə yaxınlaşıb bayıra çıxmağımı istədilər. Nəyin baş verdiyini tam olmasa da anladığımdan sakitcə otaqdan çıxdım. İçimdə həmin an hansı hisslərin cərəyan etdiyini bir Allah bilir. Foyedə polis generalları, prezidentin mühafizə xidmətinin əməkdaşları və Hacıbala Abutalıbovu gördüm. Elə oradaca çıxarılmağıma göstərişin Hacıbala tərəfindən verildiyini dedilər. Hamını sakit baxışlarımla süzüb "bu tərbiyəsizliyə, əxlaqsızlığa da əl atdınız" deyib çıxdım. Bu günə qədər mənə qarşı çox qanunsuzluqlar, zorakılıqlar, təhdidlər olmuşdu, ancaq heç vaxt belə sarsılmamışdım" deyə vəkil yazıb.

YENİ MÜSAVAT
N 8 (6329) 13 yanvar 2016

**Son bir neçə gündə Bakıda ev oğruları ilə bağlı ciddi təlaş var. Demək olar ki, hər gün ev oğrularının yeni işləkləri ilə bağlı video çəkilir, sosial şəbəkədə paylaşılır. Məlum olur ki, evlərə gül firması adı ilə gələnlər də var, “həyətdə maşınınızı düzgün park edin, çıxa bilmirəm” bəhanəsi ilə quldurluğa cəhd edənlər də var. Bunu son günlər manatın devalvasiyasının nəticəsi kimi qələmə verənlər də var.**

# Ev oğruları və onlardan qorunmağın yolları

## Bakıda ev oğruları ilə bağlı ciddi təlaş var; onların atişləməz oğurluq üslubları...



Bəs yaxşı, nə edək ki, oğrulardan qorunaq? Onların hansı atişləməz yolları var? Qorunma tədbiri ancaq evə qapanıb, qorxudan stresə düşməkdir, ya...?

ABŞ-da aparılan bir araşdırmaya görə, oğurluq hallarının 18 faizi iyul-avqust aylarında baş verir. Polis sənədlərində ən çox oğurluq halları isə avqustda yaşanır. Bu, bizim ölkəmiz üçün də keçərli haldır. Çünki insanların əksəriyyəti illik məzuniyyətlərini avqust ayında götürür. Halbuki oğurluq hallarının çoxunun qarşısı olduqca bəsit çözümlərlə alına bilər.

Amma dünya ölkələrində oğurluq statistikası daha çox siyasi baxımdan qarışıq günlərdə, eləcə də iqtisadi böhran ərəfəsində özünü göstərir. Kasıblıq bütün təbəqələri sıxdığı zaman oğrular xüsusən aktivləşirlər. Hazırda isə Azərbaycanda haqqında danışdığımız iqtisadi böhrandır. Oğrular aktivləşib, insanlar təlaş içində özlərini qorumağa çalışırlar.

### Oğruların köməkçisi-qapı ağzındakı qəbzlər və xüsusi vərəqələr

Heç kimə sirr deyil ki, oğruların ən böyük “silah”ı evlərin qapısına sıxışdırılmış elektrik, qaz borcları qəbzləridir. Onlar bu qəbzlərə əsasən ev sahiblərinin evdə olmadığını müəyyənləşdirirlər. Tutaq ki, həmin qəbz üç gün dalbadal qapıya dürtüşdürülmüş halda qalırsa, bu, evin oğruya “məni soy” mesajı verməsi deməkdir. Ya da başqa bir üsul. Oğrular sahibinin evdə olmadığından şübhələndikləri evin qapısı ağzına özləri kiçik bir kağız, ya da kiçik bir ip yerləşdirirlər. Növbəti günlərdə o kağız, ya da ip yerə düşürsə, bu, “qapı açılıb və ev sahibi evdədir” anlamına gəlir. Odur ki, tətilə - bağa, rayona, xaricə gedənlər yaxın bildikləri qonşularından, qohumlarından qapılarına nəzarət etməyi xahiş edə bilərlər.

### “Bu bloka qonaq gəlmişəm, amma kodu bilmirəm” yalançıları...

Son illər Bakıda bir çox binalarda blok qapılarının kodlaşdırılmış olması sakinləri sakitləşdirir. Onlar düşünür ki, oğru kodu bilmədiyi üçün blokdan da içəri girə bilməyəcək. Amma unutmaq olmaz ki, hər kəs bloka daxil olarkən qapını tam bağlamır. Bu isə binanın sakini olmayan şəxslərin rahatlıqla içəri girməsinə səbəb olur. Bundan başqa, blokun qapısı ağzında dayanıb, “mən filan mərtəbəyə qonaq gəlmişəm, kodu bilmirəm” deyənlərə də qapı açmaq lazım deyil. Onlara çox mədəni şəkildə evinə qonaq gəldiyi adamdan zəng edib, yardım istəməsini məsləhət görmək olar. Bu halda həm sizinlə eyni vaxtda qaranlıq bloka daxil olan oğrudan özünüzü qoruya bilərsiz, həm də qonşularınızı.

### Bunları etsəniz, oğrudan qorunacaqsız

Araşdırmalar onu da göstərir ki, oğrular üçün daha bir ip ucu qaranlıq düşəndə yanmayan ev işıqlandır. Polislər məsləhət görür ki, evdəki bəzi lampalara müasir texnologiyanın köməyi ilə zaman tənzimlənməsi qoyulsun. Yəni lampa müəyyən saatdan sonra bir müddət işləsin. Araşdırmalara inansaq, oğurluqların 30 faizi heç bir zor tətbiq edilmədən, sırf ev sahiblərinin məsuliyyətsizliyi ucbatından baş verir. Açıq qalmış qapı, pəncərə bunun üçün ideal zəmin yaradır. Odur ki, vaxt itirmədən bu sahənin bilicilərindən bir neçə məsləhəti sizin nəzərinizə çatdıraq.

Evinizin ətrafından içəriyə baxın. Bahalı elektrik əşyaların, tabloların, qab-qacağın pəncərədən görünməməsinə diqqət yetirin. Əgər yoldan keçən biri bunları asanlıqla görürsə, oğrular da görə bilər. Bütün qapı-pəncərələri ayrı-ayrı bağlayın. Qapıların arxasına isə ekstra sürgü taxdırın. Sanki evdəymiş kimi görünün. Zamanla tənzimlənən lampalardan istifadə edin, televizorunuzu bəlli bir saatda açıb-bağlayan zamanlayıcılardan istifadə edin.

Bəzi pərdələri sanki evdə biriləri varmış kimi açıq qoyun. Hamısını bərk-bərk bağlasanız, evdə olmadığınız dərhal anlaşıla bilər.

“Avtootvetçik”ə tətilə çıxdığınızı bildirən bir mesajı əsla qoymayın.

Sıqnalizasiya sisteminiz varsa, onu aktivləşdirin. Yoxdursa - yeni bir sistem təchiz edin.

Evdə pul, qır-qızıl... qoymamağa çalışın. Bank kassası bunun üçün ideal məkan sayılır. Yox, əgər bankda hesabınız yoxdursa, çalışın ki, bunu yataq otağında gizlətməyəsiniz. Çünki oğrular bunların daha çox yataq otağında olduğunu təxmin edir.

Araşdırmalar bir oğrunun evə girməsi üçün ən çoxu 5 dəqiqə əziyyət çəkdiyini, alınmayanda isə vaz keçdiyini göstərir. Odur ki, əsas məsələ etibarlı qapı-pəncərədədir. Yəni siz oğrunun işini çətinləşdirmək üçün əlinizdən gələni edin. O 5 dəqiqədə qarşısına qoyacağınız maneələrin sayı nə qədər çox olarsa, eviniz və siz bir o qədər təhlükəsizlikdə olacaqsınız.

### Qapı ustaları, səyyar alverçilər, dilənçilər - bunlardan qorunun!

Bizim bilmədiyimiz, amma polis qeydiyyatlarında yer alan məqamlardan biri də qapı ustaları ilə bağlıdır. Məlum olur ki, ev oğurluqları zamanı qapı ustalarının da yardımından xeyli istifadə olunur. Qapı ustası çağıranda mütləq tanıdığınız adama müraciət etməyiniz lazımdır. Mütəxəssislər məsləhət görür ki, internetdən, qəzet elanlarından qapı ustası tapmayasınız. Çünki onların potensial oğru olmayacağına heç kim zəmanət vermir. Bundan başqa, qapı açılmadığı vaxt əsla qonşuya müraciət etməyiniz də məsləhət görülmür. Bu gün qapalı qapınızı açan, onun sirrini öyrənən qonşunun sabah siz evdə olmayanda o qapını başqa niyyətlə açmayacağı haradan bəllidir?

Hazırda Bakıda daha çox narahatçılıq yaradan başqa bir məqama - blok girişlərinə də toxunaq. Bəzilərinə guya kod sistemi qoyulsa da əksəriyyəti taybatay açıq sayılır. Oğruların blokdan içəri girməsi çox asan olur. Qonum-qonşunun da köməyi ilə qapıların kod sistemini aktivləşdirin ki, işiniz asanlaşsın.

Ev oğruları arasında səyyar satıcılar da xüsusi yer tutur. Ona görə də mütəxəssislər hər qapını döyən adama qapı açmamağı məsləhət görür. Bu günə qədər Bakıda baş verən ev soyğunlarının 30 faizində səyyar satıcıların əli olur. Polis şöbələrindən aldığımız məlumata görə, səyyar satıcı qismində qapıya gələn ev oğruları üzlərinə qapı açıldığı təqdirdə ilkin araşdırma apara bilirlər.

Məsələn, elə qapının ağzındanca evin kasıb, ya varlı olduğunu, eləcə də ev sahibinin durumunu müəyyənləşdirirlər. Bəzən isə ev sahibinə “filan maldan gələn həftə sizə gətirə bilərəm” mesajı verərək, sonuncunun evdə olub-olmadığını yoxlayırlar.

Yox, əgər evin xanımı “gələn həftə burda olmayacağıq, mal gətirməyin” deyirsə, bu, artıq oğru üçün siqnaldır. Gələn həftə eyni vaxtda qapını döyür, açan olmayanda isə evə öz üsulları ilə girir.

Eyni hal dilənçilər, nəzir yığanlar, falçılar üçün də keçərlidir. Onlar da ev oğrularının bir nömrəli partnyoru, şərikidir. Bəzən bu kateqoriyadan olan adamlar israrla qapıları döyür, içəridən bir səs gözləyirlər. Polislər məsləhət görür ki, bu halda ev sahibləri içəridən onları acıqlı bir səslə qovsun. Onlara cavab verməmək həm də evdə heç kimin olmaması kimi də anlaşıla bilər. Habelə onlara evdəki uşağın cavab verməməsi məsləhət görülür. Çünki oğrular üçün “evdə heç kim yoxdur, təkəm” deyən uşaqdan böyük köməkçi ola bilməz.

Bakıda daha çox populyar olan bir hal isə evin açarının qapı ağzındakı əski parçasının altına qoyulmasıdır. Ev sahibləri bəzən evi tərk edəndə açarı qonşuya etibar etmək yerinə əskiyə etibar edir. Nəticədə isə bu, oğruların da işini asanlaşdırır. Çünki bu, çox populyar açar gizlətmə üsuludur.

Polislər və detektivlər bütün bu qorunma üsullarına diqqət etməyib evini oğrulardan qoruya bilməyənlərə də məsləhətlər verir. Evin oğurlandığını görənlər heç bir əşyaya toxunmadan, ip uclarını yox etmədən polisə xəbər verməlidir. Bundan başqa, hər ehtimala qarşı tətilə çıxmazdan əvvəl dəyərli əşyaların şəklini çəkmək məsləhət görülür. Tapılanda sizə məxsus olduğunu dəqiq anlamaq və təbii ki, sübut etmək üçün.

**Sevinc TELMANQIZI**

# Zorakılıqla öldürülən DSK sədrinin oğlu imiş



**Bakıda işgəncə ilə öldürülən şəxslə bağlı bəzi faktlar məlum olub. APA-nın əldə etdiyi məlumata görə, yanvarın 7-də paytaxtın Nizami rayonu, R.Rüstəmov küçəsi ev 4, mənzil 46 ünvanında qətlə yetirilən Fərid Abbasov 124 saylı Şuşa-Xocalı-Xocavənd-Ağdam Dairə Seçki Komissiyasının sədri Vahid Abbasovun oğludur.**

V.Abbasov APA-ya açıqlamasında oğlunun qatillərinin hələ tapılmadığını bildirib: “Oğlum bir aydan çox idi tək yaşayırdı. Ailəsində söz-söhbət olduğu üçün həyat yoldaşı uşaqları da götürüb evdən gedib. Fəridin səhhətində də problemləri var idi. Biz şuşalıyıq. Qarabağ müharibəsində atılan top mərmilərinin səsindən onda psixoloji problemlər yaranmışdı. Dəfələrlə bundan müalicə də alıb. Ona görə də heç yerdə işləmirdi. Paltarını, yeməyini özüm aparırdım. Kimlərlə əlaqələrinin olduğunu bilmirdim”. V. Abbasov hadisə ilə bağlı polisə ifadə verdiyini qeyd edib: “Hələlik istintaq gedir. Bildiyimə görə tutulan yoxdur”.

Qeyd edək ki, yanvarın 7-də Fərid Abbasovun üzərində zorakılıq əlamətləri (döyülmə üçün xarakterik olan) və qolları bağlı vəziyyətdə olan meyiti kirayədə yaşadığı Nizami rayonu R. Rüstəmov küçəsindəki mənzildə tapılıb.

# Beyləqanda və Bərdədə dəhşət: iki məktəbli özünü asdı



**Azərbaycanda iki dəhşətli intihar hadisəsi baş verib. Beyləqan Rayon Polis Şöbəsindən APA-ya verilən məlumata görə, Füzuli rayon Şəkərli kənd sakini, Beyləqan ərazisində Fin qəsəbəsində məskunlaşmış 11 yaşlı Qara Ağayev evlərində özünü asıb. İntiharın səbəbləri məlum deyil.**

Digər intihar hadisəsi isə Bərdədə baş verib.

Rayon polis şöbəsindən verilən məlumata görə, hadisə rayonun Hacılı kəndində qeydə alınıb. Kənd sakini, 1999-cu il təvəllüdlü Aytac Zamin qızı Surxaylı yaşadığı ünvanda özünü asıb. Onun özünə qəsd etməsinin dəqiq səbəbləri də hələlik məlum deyil.

Polisdən həmçinin bildirilib ki, A. Surxaylı orta məktəb şagirdi olub.

Hər iki faktla bağlı araşdırmalara başlanılıb, istintaq gedir.

# Nardaran ağsaqqalı özünü qismən təqsirli bilir


Natiq Kərimov

**Nardaran Ağsaqqallar Şurasının sədri Natiq Kərimov ittiham olunduğu maddə üzrə özünü qismən təqsirli bilir. Bu haqda modern.az-a onun hüquqlarını müdafiə edən Əyyub Ələkbərov məlumat verib.**

Vəkil N.Kərimovla yanvar ayının 11-də görüşdüyünü bildirib: "Onunla görüşdük. Səhhəti, saxlanma şəraiti normaldır, heç bir şikayəti yoxdur".

Ə.Ələkbərov müvəkkilinin ittiham olunduğu maddə üzrə özünü təqsirli bildiyini açıqlayıb: “Onunla söhbətimiz zamanı ittiham olunduğu maddə üzrə özünü qismən təqsirli bilir”.

Hüquqşünas apelyasiya şikayətinin verilməsi ilə bağlı son sözü Natiq Kərimovun deyəcəyini vurğulayıb: “Bu, onun özündən, öz istəyindən asılıdır. Əgər istəsə apelyasiya şikayəti verəcəyik...”

Qeyd edək ki, Ə.Ələkbərov dövlət tərəfindən təyin edilmiş vəkildir.

Natiq Kərimov Dövlət Təhlükəsizliyi Xidmətinin İstintaq Baş İdarəsi tərəfindən aparılan cinayət işi üzrə şübhəli bilinərək 7 yanvar 2016-cı il tarixdə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilib, məhkəmənin qərarı ilə barəsində həbs-qətimkan tədbiri seçilib.

Hazırda istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# Dini kəbinin vacibliyinə dair iki fərqli rəy

## Hacı Əbdül: "Əgər iki gənc kəbinsiz yaşasa, dövlət qeydiyyatı olsa belə zina sayılır"

## İlahiyyatçı Bəhruz Camal: "Bir şəxs dini kəbinin vacib olduğunu bilmirsə, ancaq dövlət nikahı ilə evlənirsə, o, günah etmiş sayılmır"

**Bütün İslam ölkələrində olduğu kimi, Azərbaycanda da rəsmi dövlət nikahı ilə yanaşı dini kəbin anlayışı da var. Təbii ki, ölkəmizdə nikahın rəsmi dövlət qeydiyyatına alınması tərəflərin ər-arvad olduğunu hüquqi baxımdan təsdiq edir. Bir çoxları dini kəbinin vacib olmadığını, əsas zəruri olanın rəsmi dövlət nikahı olduğunu desə də, bunun əksini düşünüb hər iki nikahı kəsdirənlər də var. Bəzən isə sadəcə dini kəbinlə kifayətlənən qadınlar gələcəkdə müxtəlif problemlərlə üzləşirlər.**

Maraqlıdır, doğrudanmı dini kəbin rəsmi dövlət nikahı qədər vacibdir və onu kəsdirməmək günah sayılır? Ümumiyyətlə, kəbinin mahiyyəti nədir, kəbin oxunarkən hansı sözlər deyilir?

**"İmam Hüseyn" məscidinin axundu, "Tövbə" Cəmiyyətinin sədri Hacı Əbdül kəbinsiz yaşamağın zina hesab edildiyini dedi:** "Kəbin kəsdirmək üçün hər iki tərəfin - qızın və oğlanın razılığı olmalıdır. Hər iki tərəfin valideynləri də bizə müraciət etməlidir. Kəbin kəsmək üçün qızdan və oğlandan kəlmeyi-şəhadəti bilib bilmədikləri soruşulur. Əgər bilmirlərsə də, öyrədirik və təkrar edərək kəbin kəsilir. Kəbin dövlət nikahından da vacibdir. Dini kəbin kəsdirməyin qiyməti yoxdur. Kim nə qədər istəsə verə bilər. Hörmətlərinə görə axund öz zəhmətini halal edə bilər.



Əgər iki gənc kəbinsiz yaşasa, dövlət qeydiyyatı olsa belə, zina sayılır".

**İlahiyyatçı Bəhruz Camal isə dini kəbinin vacibliyini anlamayan insanda bunun qüsur sayılmadığını bildirdi:** "Bütün İslam ölkələrində din dövlətdən ayrıdır, sekulyar idarəetmə üslubuna malikdir. Belə dövlətlərdə həm rəsmi nikahlar, həm də müsəlman olduğumuza görə şəriət hökmləri baxımından kəbin mövcuddur. Dini kəbinin mahiyyəti Allah dərgahında hansısa qadın və kişini Allahın şahidliyi əsasında ər-arvad elan etməkdən ibarətdir. Əqd sözünün mənası düyün deməkdir. Mehriyyə deyilən bir rüsum var. Bu qadınların hüququdur ki, müəyyən məbləğ, hansısa əşya o qadının haqqıdır və onu özü təyin edə bilər. Həmin miqdar ya hansısa əşya kişinin boynunun borcudur. Necə ki, rəsmi nikah ər-arvadın rəsmiyyətini tanıyır və rəsmi şəkildə hər hansısa qadın və kişini ər-arvad elan edirlərsə, dini kəbinin də mahiyyəti ilahi dərgahda hansısa qadının və kişinin Allah dərgahında da ər-arvad olduğunu göstərməkdir. Buna görə də İslam ölkələrində dövlət nikahlarından əlavə el arasında deyilən ya imam nikahı, ya dini kəbin də əhəmiyyətinə görə zəruridir".

**Kəbinin geri oxunması, yəni talağ məsələsinə gəlincə isə ilahiyyatçı bunun da müəyyən şərtləri və öhdəlikləri olduğunu dedi:** "Talağ məsələsi İslamda çox həssas məsələdir. Çünki hədislərimizdə də qeyd edilib ki, talağ edən şəxs Allahın dərgahını silkələmiş kimi hesab olunur. Yəni Allahın özü də talağı bəyənmir. Talağda da müəyyən öhdəliklər var. Bəzi şəriət qaydalarında boşamaq hüququ kişinin üzərindədir. Kişi xanımını boşamayınca xanım boşana bilməz. Amma əlbəttə ki, müəyyən şərtlər çərçivəsində. Adətən xanımlar psixoloji cəhətdən hər məsələdə emosional təpki göstərib boşanmaq zərurəti olmayan bir yerdə də boşanma iddiası irəli sürə bilərlər. Bu baxımdan talağ hüququ kişinin öhdəsindədir. Amma bu, o demək deyil ki, ümumiyyətlə, ailə məsuliyyətini öz üzərinə götürməyən kişi ilə xanım bir damın altında yaşamağa məcbur deyil. Bəzi istisna hallarda qadın özü də talağını tələb edə bilər. Qadın öz böyüyü ilə bunu iddia edə bilər".

**Əgər kişi kəbinin mahiyyətini anlamırsa və yalnız rəsmi dövlət nikahı ilə kifayətlənmək istəyirsə, bunun haram sayılmadığını deyən ilahiyyatçı dini kəbini istənilən vaxt kəsdirməyin mümkün olduğunu dedi:** "Şəriət ölkələrində İslam qaydaları hökmdür. Səudiyyə Ərəbistanı, İran kimi ölkələrdə şəriət qayda-qanunları ön plandadır. Belə dövlətlərdə ilkin olaraq dini nikah oxunur. Amma Azərbaycan kimi ölkələrdə din alimlərinin nəzərinə görə əgər bir şəxs dini kəbinin vacib olduğunu bilmirsə, ancaq dövlət nikahı ilə evlənirsə, o adam günah etmiş sayılmır. Amma dini nikahın zəruri olduğunu anladığı vaxt həmin anladığı andan dini nikahını oxutdura bilər. Ölkəmiz müsəlman ölkəsi olduğu üçün insanlarımız bu qaydalardan xəbərdar olmalıdır. Bu gün hər hansı qadın və yaxud da kişi dövlət nikahı ilə evlənirsə və bilirsə ki, şəriət hökmünə görə, İslamın nikah forması da lazımdır, onu kəsdirməlidir. Bunun vacibliyindən xəbərdar olmayan şəxslər üzürlüdürlər. O vaxt ki, bunu anladılar, onu dərhal oxutdurmalıdırlar. Amma bizdə demək olar, bunu hamı bilir. Rəsmi dövlət nikahından sonra məscidlərə müraciət edib dini kəbinlərini də oxutdururlar".

❑ **Günel MANAFLI**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

**Əlaqə nömrəsi (050) 264 49 99**



**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

# Donuz qripi əhali arasında təlaş yaradıb

## Xəstəliyin ilkin əlamətləri müşahidə edildikdə təcili evə həkim çağırmaq lazımdır






**İranda ötən il 33, bu il isə Türkiyədə 13 nəfər "donuz qripi" epidemiyasının qurbanı olub. Bugünlərdə isə ölkədə bu xəstəliklə bağlı təşviş başlanıb. Xüsusən də Naxçıvan Ali Məclisinin sədri Vasif Talıbovun həyat yoldaşının bu xəstəlik şübhəsi ilə Türkiyəyə aparılması ölkədəki təlaşı daha da artırdı. Doğrudanmı qonşu ölkələrdən bizə də bu xəstəlik transfer olunub?**

Amma rəsmi təkzib artıq verilib. Səhiyyə Nazirliyinin Respublika Taun Əleyhinə Stansiyasından bildirilib ki, indiyədək ölkədə bu xəstəliklə bağlı heç bir şübhəli hal qeydə alınmayıb. Amma qripin müalicəsi üçün lazımi dərman ehtiyatı yaradılıb. Bundan başqa, səhiyyə naziri Oqtay Şirəliyevin "donuz qripi" ilə bağlı imzaladığı əmrlə əlaqədar müvafiq tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası (MR) Səhiyyə Nazirliyi son günlər mətbuatda Naxçıvan MR-də donuz qripinin yayılması barədə xəbərlərə münasibət bildirib.

Naxçıvan MR Səhiyyə Nazirliyinin mətbuat xidmətindən apa.az-a verilən məlumata görə, MR Səhiyyə Nazirliyinin Gigiyena və Epidemiologiya Mərkəzinin Xüsusi Təhlükəli İnfeksiyalarla Mübarizə və Sanitar Karantin Nəzarəti şöbəsi tərəfindən MR-in sərhəd keçid məntəqələrində karantin tədbirlər görülür, digər ölkələrdən gələn şəxslər üzərində tibbi müşahidələr aparılır.

Naxçıvan Səhiyyə Nazirliyi bildirir ki, bu günə qədər MR-in səhiyyə müəssisələrinə müraciət edən kəskin respirator infeksiyalı xəstələrdən götürülən laborator analizlərin nəticələrində donuz qripi (H1N1) virusu aşkar edilməyib. Görülmüş tədbirlər nəticəsində MR-də epidemioloji durum tam stabildir.

Bilməyənlər üçünsə bu xəstəlik və onun əlamətləri, tarixi barədə bir neçə məlumat. Donuz qripi ilk dəfə 1931-ci ildə aşkar edilmiş təhlükəli tənəffüs yolu xəstəliyidir. İlk dəfə bu xəstəliyi Amerika alimi Riçard Şoup aşkar edib. Sinfinə görə donuz qripinin ən geniş yayılmış növü A tipli virusa aiddir. Virus hava-damcı yoluyla yayılır, simptomları yüksək hərarət, kəskin öskürək və yanğıdır. Donuz qripindən heyvanlar arasında ölüm faizi aşağıdır, hazırda aşkar olunan virus isə donuz qripi virusunun mutasiya olunmuş formasıdır.

Dünya Səhiyyə Təşkilatının baş katib müavini doktor Keyci Fukuda deyib ki, bu virusların virusologiyasına baxılarsa, bunlar donuz qripinin viruslarıdır, yəni heyvan viruslarıdır. Lakin bunlar Meksika və Birləşmiş Ştatlarda qeydə alınmış donuz qripi virusundan fərqlidir və deməli, donuz virusunun yeni növüdür. Fukuda bildirib ki, vəziyyətə çox ciddi yanaşılır, amma virusun öz təbiəti və yayılma sürəti barədə kifayət qədər informasiya yoxdur: **"Hazırkı məqamda biz vəziyyətə çox ciddi yanaşırıq, bu qripin qeydə alındığı bütün ölkələr vəziyyəti ciddi qəbul edirlər. Lakin bu da bəllidir ki, biz hazırda ümumi mənzərənin aydınlaşmağa başladığı mərhələdəyik. Biz elə bir mərhələdəyik ki, mümkün olan ən zəruri informasiyaları toplamalıyıq".**

Donuz qripi donuzlarda müşahidə olunan nəfəs yolu infeksiyasıdır ki, onu da doğuran qrip virusudur. Bu virus insanlarda qrip yaradan virusdan fərqlənir. Donuzlarda olan bu virusa donuzla yaxın kontaktda olan insanlar da yoluxa bilər, amma bu, çox az hallarda baş verir. Əvvəllər də donuz qripi epidemiyası qeydə alınıb. Bunlardan ən geniş məlum olanı 1976-cı ildə Amerika ordusunda baş verən epidemiyadır. Hazırda Meksikada aşkar edilən virus yeni tipli virusdur və əvvəllər nə insanlarda, nə də donuzlarda qeydə alınmayıb.

BMT, Dünya Səhiyyə Təşkilatının və əksər ölkələrin müvafiq qurumlarının A\H1N1 virusuna qarşı mümkün tədbirləri görməsinə baxmayaraq, ona yoluxan insanların və ölənlərin sayı durmadan artır.

ABŞ-ın Epidemiyadan Müdafiə Bürosu (Centre for Disease Control (CDC) rəsmi olaraq təsdiq edib ki, bu virusun insandan insana yoluxma xüsusiyyəti mövcuddur. Lakin bu prosesin nə dərəcədə yüngül baş verməsi və buna görə də epidemiya təhlükəsinin nə qədər böyük olması hələ öyrənilir. Məlumatlar yeni yoluxma halları ilə tutuşdurulur və daim yenilənir.

Bu qrip yüksək patogenli virus ştamının törətdiyi kəskin infeksion xəstəlikdir. Virus çox asanlıqla insandan-insana hava-damcı yolu ilə keçir və bir neçə saatdan 7 günə qədər olan müddətdə özünü göstərir. Uşaqlar, xüsusən də azyaşlı uşaqlar daha uzun müddət ərzində potensial yoluxdurucu ola bilər.

Donuz qripinə yoluxma müxtəlif yollarla baş verir. Xəstəlik ilk növbədə artıq virusa tutulan xəstə adamla yaxın ünsiyyət vaxtı, öskürək və asqırma zamanı ağız seliyi zərrəciklərinin havadan digərinin nəfəs yoluna düşməsi nəticəsində yayılır. Xəstə donuzların olduğu fermalardakı insanlar da xəstəliyə yoluxmaq təhlükəsi ilə üzləşirlər.

Xəstəliyin ilkin əlamətləri yüksək hərarət, öskürək, boğazda ağrı, zökəm, baş və əzələ ağrıları, bəzi hallarda qusma və diareyadır. A/H1N1 virus tipi ilə xəstələndiyi təsdiq olunmuş şəxslər xəstəxanaya yerləşdirilmədiyi hallarda və ya xəstələnmə şübhəsi olan şəxslər ev şəraitində, ən azı xəstəliyin başlandığı ilk 7 gün ərzində təcrid edilməlidir.

Bəzi xəstələrdə qarın işləməsi və qusma halları qeydə alınıb. Meksikadakı hallar isə ağır formalı sətəlcəm xəstəliyini xatırladır. Mövsümi qriplər kimi donuz qripinin də müxtəlif xroniki xəstəliklərə qədər inkişaf edən fəsadları ola bilir.

Həkimlər adi qrip epidemiyası zaman verdikləri məsləhətləri təkrar edirlər. Əlləri sabunla əsaslı şəkildə yumaq lazımdır, xəstə adamlarla yaxın kontaktdan çəkinmək və nəfəs yollarını tənziflə bağlamaq. Birdəfəlik burun dəsmallarından istifadə etmək və burunu silərdən sonra onu dərhal atmaq lazımdır. Tərkibində spirt olan məhlullar da yaxşı dezinfeksiya edir.

Xəstəliyin ilkin əlamətləri müşahidə edildikdə təcili evə həkim çağırmaq, çoxlu miqdarda maye qəbul etmək, maska və ya pambıq tənzifli maska taxmaq lazımdır. Ailədə xəstə şəxslə təmas zamanı gigiyena qaydalarına əməl edilməlidir. Profilaktiki tədbirlər kimi kəskin respirator xəstəlikləri (hərarət, öskürək, zökəm) və qripin digər əlamətləri olan şəxslərlə yaxın əlaqədən mütləq qorunmaq lazımdır. Mütləq evdə qalmaq, işə və ya təhsil müəssisəsinə getməkdən, kütlə ilə təmasdan çəkinmək, insanlarla təmasa girməmək üçün ailə üzvlərinə və yaxınlara xəstəliklə bağlı məlumat vermək lazımdır.

❑ **Sevinc TELMANQIZI**



# İrandan Azərbaycana ət gətirilməsi qadağan edildi

**Baytarlıq Xidmətinin mətbuat xidmətinin rəhbəri Yolçu Xanvəlinin BAKU.WS-ə verdiyi məlumata görə, İran İslam Respublikasının Qum bölgəsində dabaq xəstəliyinin baş verməsi ilə əlaqədar Baytarlıq Nəzarəti Xidmətinin rəisinin və Baş Dövlət Baytarlıq Müfəttişinin səlahiyyətlərini müvəqqəti icra edən Azər Süleymanov əmr imzalayıb.**

Azərbaycan Respublikası ərazisinin başqa dövlətlərdən keçə biləcək yoluxucu və ekzotik xəstəliklərdən qorunması məqsədilə "Baytarlıq haqqında" Azərbaycan Respublikası Qanununun 8.1.7-ci maddəsini və Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidməti haqqında Əsasnamənin 8.4-cü bəndini rəhbər tutaraq Dövlət Baytarlıq Nəzarəti Xidmətinin imzaladığı bu əmrdə Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (BEB) rəsmi məlumatına görə, İran İslam Respublikasının Qum bölgəsində dabaq xəstəliyinin baş verməsi bildirilir.

Bununla əlaqədar əmrdə həmin bölgədən və risk zonasına yaxın olan Arak, Kaşan və Tehran bölgələrindən də diri heyvanların və heyvandarlıq məhsullarının idxalına müvəqqəti məhdudiyyət qoyulması, eləcə də digər dövlət baytarlıq nəzarətində olan yüklərin idxalına isə İranın Dövlət Baytarlıq Xidmətinin yük çıxan ərazinin epizootik vəziyyəti və məhsulun sağlamlığı haqqında arayışı olduğu təqdirdə baxılması qeyd edilir.

İranda baş vermiş dabaq xəstəliyi ilə bağlı ölkəmizin bu xəstəlikdən qorunması üçün bütün zəruri tədbirlər görülməsi məqsədilə müvafiq strukturlara tapşırıqlar verilib, aidiyyəti dövlət qurumları məlumatlandırılıb.

Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidməti bildirir ki, dabaq xəstəliyinə və digər iti yoluxucu xəstəliklərə görə ölkəmizdə epizootik vəziyyət sabitdir.

YENİ MÜSAVAT

Son səhifə

N 8 (6329) 13 yanvar 2016

# Alsheymer xəstəliyinin səbəbi



Alsheymer xəstəliyi ağıl zəifliyinin inkişafına səbəb olan ağır müalicə olunmayan xəstəlikdir. Bütün dünyada 47 milyondan artıq insan bu xəstəlikdən əziyyət çəkir. Alsheymer xəstəliyinin dəqiq səbəbi hələ ki məlum deyil. Bu yaxınlarda İngiltərə Sauthempton Universitetinin alimləri bu xəstəliyin səbəblərindən birini təyin ediblər. Bu haqda "Medical News Today" məlumat verib. Alimlər araşdırmalar nəticəsində belə qərara gəliblər ki, Alsheymer xəstəliyinin səbəblərindən biri beyində gedən iltihabi prosesdir. Bu xəstəlikdən əziyyət çəkən xəstələrin beyin toxuması müayinə olunub. Nəticədə toxumada xüsusi immun hüceyrələrinin sayının artması aşkar olunub. Bu hüceyrələrin sayı iltihab zamanı artır. Hazırda alimlər siçovulların üzərində bu hüceyrələrin sayını azaldan preparatı sınaqdan keçirirlər. Preparatın istifadəsi müsbət nəticə verir. Daha sonra preparat Alsheymer xəstəliyindən əziyyət çəkən insanlar üzərində test olunacaq.



## Bu kənddə kişilər içmir, şahmat oynayırlar

Hindistanın cənubundakı Kerala ştatında, kiçik Marottiçal kəndində yaşayanlar şahmat pərəstişkarlarıdır. Bu kənddə az qala hamı şahmatı sevir. Milli.az "asiaone"ə istinadən bildirir ki, ötən əsrin 1960-1970-ci illərində bu kənddə əyyaşlıq baş alıb gedirdi. Yerli istehsal olan likördən hədsiz dərəcədə içən kişilər və yeniyetmələr arasında ayıq adam tapmaq müşkül məsələ idi. İş o yerə çatmışdı ki, kəndin qadınları polisə şikayətlənərək likörlərin saxlandıqları yerlərin yandırılmasını tələb etmişdilər. Lakin kənd sakini, 10-cu sinif tələbəsi Sintay Unnikrişnan şahmatın sirlərini öyrənmək fikrinə düşəndə vəziyyət dəyişməyə başladı. Sintay dünyaca məşhur şahmatçı, 16 yaşında qrossmeyster olmuş amerikalı Bobbi Fişerin pərəstişkarı idi. Unnikrişnan qonşu kəndə yollanıb şahmatın sirlərini öyrənir, sonra da evdə təkbaşına oynayırdı. Daha sonra o, evində kəndlilərə pulsuz şahmat dərsləri verməyə başlayıb. Son 40 il ərzində Unnikrişnan 600 nəfərə şahmatın sirlərini öyrədib. Kənd sakinləri arasında ştatda və Hindistanda şahmat yarışlarında qalib gələnlər az deyil. Kəndin bələdiyyə sədri Hrinavasanın dediyinə görə, kənddəki kişilərin 90 faizi şahmat oynayırlar. Hindistanda bu kəndi "şahmat kəndi" adlandırırlar. Məşhur şahmatçı Vişvanatan Anand da kəndliləri təbrik edib.

# İnsanlar üçün heyvan orqanı

Alimlər təxminən 50 donuz və qoyunun daşıdığı embrionlara insan genləri əlavə etməyi bacardıqlarını və təcrübələr nəticəsində əldə edəcəkləri "qırma" heyvanların orqanlarının bir gün insanlara nəql edilə biləcəyini söyləyiblər. Araşdırmanın nəticələri "MIT Technology Review" jurnalında dərs edilib. Araşdırmalar Amerikanın Beynəlxalq Səhiyyə İnstitutu tərəfindən aparılır. Ötən il 20 heyvana embrion əlavə edilib. Təxminən 30 qoyun və donuz balası doğulduqdan sonra onların orqanlarını insanlara köçürmək mümkün olacaq. Mütəxəssislər yalnız heyvanların insan özəlliyi daşımasından narahatdır. İnsan saçlı heyvanların normaldan daha ağıllı olacağı güman edilir. Ayrıca bu heyvanlardan əldə ediləbiləcək orqanların insanlara nəql edilməsinin nə qədər təhlükəsiz olub-olmayacağı isə bəlli deyil. Heyvan haqları müdafiəçiləri heyvanların insana bənzəyəcəyindən qorxduqları üçün etiraz etsələr də, alimlər insan DNT-si daşıyan heyvanların doğulmayacağını bildirirlər.





## 84 yaşlı media maqnatı nişanlandı

84 yaşlı media maqnatı Rupert Merdok nişanlanıb. Onun seçimi isə keçmiş supermodel Cerri Holl olub. Bu barədə "BBC News (World)" "Twitter" səhifəsində məlumat yayıb. Rupert Merdok dünyanın ən məşhur qəzetləri "The Times", "The Wall Street Journal", "The Sun" və "New York Post"un sahibidir. Təzə bəy hətta "Fox News" televiziya kanalının və nüfuzlu "Dow Jones" agentliyinin rəhbəridir. Bundan əlavə, "20th Century Fox" film istehsalı şirkəti də ona məxsusdur. Maqnatın fərqli həyat yoldaşlarından 4 oğlu və 2 qızı var. Rupert Merdokun sevgilisi 59 yaşlı Cerri Xoldur. Cerri əvvəl "The Rolling Stones" qrupunun əfsanəvi rok ifaçı Mik Caqqerin uzun müddət sevgilisi olub.




**QOÇ** - Bu gündən şəxsi həyatınızda böyük dönüş yaranacaq. Bu, həm fəaliyyət zəminində, həm də qarşılıqlı münasibətlərdə özünü büruzə verəcək. Bu arada aldığınız hər bir təklifə ciddi yanaşın.

**BUĞA** - Energetik anlamda sizin üçün əhəmiyyətli bir təqvimdir. Qarşınızda duran sınaqlardan daha mənfəətli şıxmaq üçün bunun böyük əhəmiyyəti olacaq. Axşama doğru ailə üzvlərinizlə əlaqəni dərinləşdirin.

**ƏKİZLƏR** - Saat 13-ə qədər bütün ciddi işlərinizi təxirə salın. Çünki nəzərdə tutduğunuz planların reallaşma ehtimalı nəinki yoxdur, habelə bu istiqamətdə maneələriniz artacaq. Sonrakı saatlar qismən uğurludur.

**XƏRÇƏNG** - Astroloji göstəricilər qarşınızda görüşlərlə zəngin bir gün olduğunu bəyan edir. Səfər üçün uğurlu olmasa da, yaxın məsafədə yaşayan simsarlarınıza baş çəkməyiniz sizə rahatlıq gətirəcək.

**ŞİR** - Yaxşı olar ki, hər şeydən əvvəl Tanrıya üz tutasınız. Son zamanlar bunu etmədiyiniz üçün işləriniz heç də yaxşı getmir. Elə isə vaxt itirməyin, nahardan etibarən hərəkətə keçin. Doğru olanı seçin.

**QIZ** - Maraqlı səfərlər yolunuzu gözləyir. Ümumiyyətlə, indi sizə insanlarla çoxəlaqəli ünsiyyət qurmaq həddən artıq vacibdir. Ən azı ona görə ki, tənhalıq, özünə qapılmaq daxilinizdə irticaçı fikirlər formalaşdıra bilər.

**TƏRƏZİ** - Göy qübbəsinə inansaq, bu gün maddi problemləriniz düzəlməlidir. Amma gərək boş-boş şeylərə xərc çəkməyəsiniz. Əks təqdirdə müflisləşə bilərsiniz. Günün ikinci yarısında perspektivli təkliflər alacaqsınız.

**ƏQRƏB** - Özünüzü xəstəlikdən qorusanız, ixtiyarınızda olan bu təqvimdə heç bir ciddi problemlə rastlaşmayacaqsınız. Ulduzlar bəyan edir ki, saat 15-dən etibarən qarşınızda böyük perspektivlər açılacaq.

**OXATAN** - Hiss olunur ki, ötən günlərin verdiyi gərginlikdən özünüzə gəlməmisiniz. Amma bu təqvimdə eyni şeylərin təkrarlanacağına inanmayın. Çünki saat 11-dən müvəffəqiyyətli müstəvidə olacaqsınız.

**OĞLAQ** - Bürcünüzün aktivlik dövrünə təsadüf edən bu təqvimdə əsas diqqəti əsəblərinizin qorunmasına yönəltməlisiniz. Çünki ünsiyyədə olduğunuz adamlardan bir çoxu zəhmətinizin dəyərini aşağı salmağa çalışacaq.

**SUTÖKƏN** - Saat 13-ə qədər sağlıq durumunuza diqqət yetirsəniz, qalan müddəti rahat şəkildə başa vuracaqsınız. Üstəlik, yeni iş təklifləri, pozulmuş münasibətlərin bərpası ovqatınızı xoş edəcək.

**BALIQLAR** - Kosmik mənzərə əleyhinizə işlədiyi üçün bütün şübhəli və həll olunmamış məsələlərdə daha çox neytral mövqe nümayiş etdirin. Əsəblərinizi qorumaq isə başlıca öhdəliyiniz olmalıdır.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Uşaqlara robot qardaş



Çində yaşayan ailələr kiçik uşaqlarına qardaşlıq etsin deyə robotlar alır. Kiçik robotlar asan cümlələr qurur və nağıllar danışır. İngiltərənin "Times" qəzetinin xəbərinə görə, illərdən "tək uşaq" siyasətinin yeridildiyi Çində uşaqlar üçün robot istehsalı çox yayılıb. Dəyəri 250 sterlinq olan robot modellərindən biri haqda danışan ana Zhao Zhihuan deyib ki, bu, sadəcə, oyuncaq deyil, eyni zamanda balaca dostdur: "Bu robotlar 6 yaşlı oğlumun gözünə zərər verən mobil telefon və kompüterlərdən çox yaxşıdır".

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300